**AZƏRBAYCAN RESPUBLİKASI**

**AZƏRBAYCAN AVTOMOBİL YOLLARI DÖVLƏT AGENTLİYİ**

# Regional Yollar və İnkişaf Layihəsi

**Ətraf Mühit və Sosial Çərçivə Sənədlərinin (ƏMSÇS) hazırlanması**

# MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI PLANI (MTCOP)




**Fevral 2021**

# MÜNDƏRİCAT


**1 GİRİŞ / LAYİHƏNİN TƏSVİRİ ....... 1**

1.1 Giriş ....... 1
1.2 Layihəyə ümumi baxış ....... 2
1.3 MTCOP-nın məqsəd və vəzifələri ....... 5

**2 QAYDALAR VƏ TƏLƏBLƏR ....... 6**

2.1 Azərbaycanın müvafiq milli/yerli qanun və qaydaları ....... 6
2.1.1 Məşğulluğa dəstəklə bağlı Əsas Qanunvericilik ....... 6
2.1.2 Vətəndaşların cəlbedilməsi və ictimaiyyətə açıqlama ilə əlaqədar milli/yerli hüquqi müddəalar ....... 7
2.2 Dünya Bankının Maraqlı Tərəflərin Cəlb Olunmasına dair Ətraf Mühit və Sosial Standartları ....... 9

**3 MARAQLI TƏRƏFLƏRİN ƏVVƏLKİ CƏLB OLUNMA FƏALİYYƏTLƏRİNİN QISA XÜLASƏSİ ....... 10**

**4 MARAQLI TƏRƏFLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ TƏHLİLİ ....... 11**

4.1 Layihənin Təsirinə Məruz Qalan Tərəflər ....... 11
4.2 Digər Maraqlı Tərəflər ....... 12
4.3 İmkanları məhdud/ həssas insanlar və ya qruplar ....... 13
4.4 Maraqlı tərəflərin layihəyə olan maraq və təsirinin xülasəsi ....... 13

**5 MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI PROQRAMI ....... 15**

5.1 Planlaşdırılıan Maraqli Tərəflərin Cəlb Olunması Fəaliyyətləri ....... 15
5.2 İstifadə ediləcək Cəlb Olunma Metodları haqqında ətraflı məlumat ....... 22
5.2.1 İctimai/ icma görüşləri ....... 22
5.2.2 Ünsiyyət/əlaqə materialları ....... 22
5.2.3 Kütləvi/ sosial media əlaqəsi ....... 22
5.2.4 Məlumat masaları ....... 23
5.2.5 Şikayətlərin həlli mexanizminin tətbiqi ....... 23
5.2.6 Bacarıqların artırılması üzrə təlimlər və seminarlar ....... 23
5.3 Təklif olunan strategiya/ həssas qrupların baxışlarını daxil etmək və onların iştirakını təşviq etmək üçün fərqli tədbirlər ....... 23
5.4 Məlumatların açıqlanması ....... 24

**6 MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI ÜÇÜN ROLLAR, MƏSULİYYƏTLƏR VƏ RESURSLAR ....... 24**

6.1 İcra qaydaları/proseduru ....... 24
6.2 Vaxt müddəti ....... 24
6.3 Rollar və məsuliyyətlər ....... 25
6.4 Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) həyata keçirilməsi üçün büdcə ....... 26

**7 ŞİKAYƏTLƏRİN HƏLLİ MEXANİZMİ ....... 27**

7.1 RYİL üzrə ŞHM-nin yaradılması ....... 27
7.2 Ciddi şikayətlərə dair protokollar və prosedurlar ....... 28
7.3 Şikayət qeydləri ....... 29
7.4 Şikayətlərə dair monitorinq və hesabat ....... 29
7.5 Mərkəzi əlaqə nöqtəsi - LİQ ....... 30

7.6 Dünya Bankının Şikayətlərin Həlli Sistemi ....................30

**8 MONİTORİNQ VƏ HESABAT ....................30**

8.1 Layihənin icrası zamanı hesabatların monitorinqi (müvafiq olduqda komponentlər üzrə) 30
8.2 Maraqlı tərəflərin Monitorinq Fəaliyyətinə cəlb olunması ....................31
8.3 Maraqlı Qruplara Hesabatın verilməsi ....................31

**9 İSTİNADLAR/TÖVSİYƏLƏR ....................33**

**10 ƏLAVƏLƏR ....................34**

**Əlavə. COVID-19 Pandemiyası zamanı Sahə İşi və Maraqlı Tərəflərin Cəlbedilməsinə dair təlimatlar ....................35**

# Şəkillərin siyahısı

Şəkil 1: Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) Xəritəsi.................... 1

# Cədvəllərin siyahısı

Cədvəl 1: RYİL/RCDP üzrə Komponentlər .................... 3
Cədvəl 2: I Komponent üzrə Layihənin Təsirinə Məruz Qalan Tərəflər .................... 11
Cədvəl 3: III Komponent üzrə Layihənin Təsirinə Məruz Qalan Tərəflər .................... 12
Cədvəl 4: Regional Yollar və İnkişaf Layihəsinin Digər Maraqlı Tərəfləri .................... 13
Cədvəl 5: Maraqlı Tərəflərin Layihəyə olan Maraq və Təsiri .................... 14
Cədvəl 6: Planlaşdırılıan Maraqli Tərəflərin Cəlb Olunması Fəaliyyətləri .................... 15
Cədvəl 7: Maraqlı Tərəflərin Cəlb Olunması Planında (MTCOP/SEP) əsas iştirakçıların/maraqli tərəflərin məsuliyyətləri .................... 25
Cədvəl 8: Maraqlı Tərəflərin Cəlb Olunması Planı – Ehtimal edilən Büdcə (2 il üçün) .................... 26

# Qısaltmalar və ixtisarlar

| | | |
|---|---|---|
| AMYL | - | Azərbaycan Magistral Yolu Layihəsi |
| TMŞ | - | Təsirə məruz qalan şəxs |
| NO | - | Nəzarət orqanı |
| İƏT | - | İcma əsaslı təşkilatlar |
| MO | - | Müsadirə orqanı |
| ƏMST | - | Ətraf Mühit, Sağlamlıq və Təhlüəsizlik |
| ƏMS | | Ətraf Mühit və Sosial |
| ƏMSÖP | - | Ətraf Mühit və Sosial Öhdəlik Planı |
| ƏMSÇS | - | Ətraf Mühit və Sosial Çərçivə Sənədi |
| ƏMSİÇS | - | Ətraf Mühit və Sosial İdarəetmə üzrə Çərçivə Sənədi |
| ƏMSİP | - | Ətraf Mühit və Sosial İdarəetmə Planı |
| ƏMSS | - | Ətraf Mühit və Sosial Siyasət |
| ƏMSS | - | Ətraf Mühit və Sosial Standartlar |
| FQM | - | Fokus Qrup Müzakirəsi |
| FMK | - | Fokal Məntəqə üzrə Koordinator |
| GƏZ | - | Gender Əsaslı Zorakılıq |
| AH | - | Azərbaycan Hökuməti |
| ŞHK | - | Şikayətlərin Həlli üzrə Komitələr |
| ŞHM | - | Şikayətlərin Həlli Mexanizmi |
| ŞHX | - | Şikayətlərin Həlli Xidməti |
| BYİB | - | Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı |
| MK | - | Məcburi Köçkünlər |
| TAŞ | - | Torpaq Alma Şöbəsi |
| DETAHQ | - | Dövlət ehtiyacları üçün torpaqların alınması haqqında qanun |
| TAK | - | Torpaqların alınması və köçürülmə |
| ƏİEP | - | Əməyin İdarə Edilməsi Proseduru |
| M | - | Magistral |
| ÇİB | - | Çoxtərəfli İnkişaf Bankları |
| MN | - | Maliyyə Nazirliyi |
| QDT | - | Qeyri-dövlət təşkilatı |
| ASC | - | Açıq Səhmdar Cəmiyyəti |
| FS | - | Fəaliyyət Siyasəti |
| DMT | - | Digər Maraqlı Tərəflər |
| LTMQT | - | Layihənin təsirinə məruz qalan tərəflər |
| LTMQŞ | - | Layihənin təsirinə məruz qalan şəxs |
| LİQ | - | Layihə İdaretmə Qrupu |
| RYİL | - | Regional Yollar və İnkişaf Layihəsi |
| YTZ | - | Yolun Təhkim Zolağı |
| KSÇS | - | Köçürmə Siyasəti üzrə Çərçivə Sənədi |
| AAYDA | - | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi |
| AAYDA-TAŞ | - | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi - Torpaq Alma Şöbəsi |
| AAYDA-LİQ | - | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi - Layihə İdaretmə Qrupu |
| MTCOP | - | Maraqlı Tərəflərin Cəlb Olunması Planı |
| TTN | - | Tikintiyə Texniki Nəzarət |

| | | |
|---|---|---|
| CİZ | - | Cinsi istismar və zorakılıq |
| STQ | - | Social Təsirlərin Qiymətləndirilməsi |
| KOSİA | - | Kiçik və Orta Sahibkarlığın İnkişaf Agentliyi |
| İNYƏMDX | - | İqtisadiyyat Nazirliyi Yanında Əmlak Məsələləri Dövlət Xidməti |
| TT | - | Texniki Tapşırıq |
| DB | - | Dünya Bankı |
| DBŞHX | - | Dünya Bankının Şikayətlərin Həlli Xidməti |

# 1 GİRİŞ / LAYİHƏNİN TƏSVİRİ

## 1.1 Giriş

Yollar Azərbaycanda dominant nəqliyyat növü kimi tanınır və milli iqtisadiyyatda onların rollarının vacib olacağı gözlənilir. Məhz bu səbəbdən də Azərbaycan Hökuməti (AH) daha yüksək hərəkətlilik, etibarlılıq və təhlükəsizliyi təmin etmək üçün yol şəbəkəsinin həcminə və keyfiyyətinə diqqəti artırmaq istəyir. Çoxtərəfli İnkişaf Banklarının köməyi sayəsində Azərbaycanda yol sektoru əvvəlki illərdə əsas yolların yenidən qurulması ilə başlayaraq inkişaf etmişdir. Əvvəlki illərdə Dünya Bankı ilə Azərbaycan Hökuməti birlikdə Magistral (M) yolu olaraq təyin olunan əsas yollardan başlayaraq ölkənin yol şəbəkəsini yaxşılaşdırmağa yönəlmiş bir yol proqramı həyata keçirirdi. M magistral yollarının yenilənməsi/təkmilləşdirilməsinin tamamlanması sona çatmağa doğru olduğundan, növbəti addım olaraq ikinci və üçüncü dərəcəli yol şəbəkələri və ya yerli yolların (Y yollar) da yenidənqurulması nəzərdə tutulmuşdur.

Yol nəqliyyatının iqtisadiyyatda mühüm rolunu davam etdirmək üçün ikinci dərəcəli və yerli yolların bərpası gündəlikdə vacib bir məsələyə çevrilir. Bəzi bölgələrdə ikinci dərəcəli və yerli yollar yol sektorunun inkişafının diqqət yetirilməsi gərəkən əsas boşluqlarıdır. Bu, təklif olunan Layihənin həll edəcəyi əsas infrastrukturlardan biridir. Bu məqsədlə, Azərbaycan Hökuməti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) vasitəsi ilə Dünya Bankı tərəfindən maliyyələşdiriləcək Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) planlaşdırılmasına başlamışdır. Bu layihə Yenikənd-Biləsuvar yol dəhlizinin bərpası və yenidən qurulması, köməkçi aqro-logistika infrastrukturunun inkişafı, yol sektoru daxilində maliyyə davamlılığı və əməliyyat səmərəliliyinin təmin edilməsi üçün texniki yardım və institusional inkişaf dəstəyini əhatə edir.

Layihə, ölkənin sosial-iqtisadi problemli və inkişaf etməkdə olan Aran iqtisadi regionundakı Salyan və Biləsuvar rayonlarında, layihənin aşağıda göstərilən məsələləri azalda biləcəyi bölgədə yerləşir: (i) əhalinin rifah və həyat səviyyələri respublika ortalamasının altındadır; (ii) yaxşı ödənişli iş yerlərinin və ticarət imkanlarının olmaması; (iii) infrastruktur və xidmətlərin çatışmazlığı; (iv) nominal orta aylıq əmək haqqı ölkə ortalamasından təxminən yüzdə 40 faiz aşağıdır; və (v) bölgə əhalisinin əhəmiyyətli bir hissəsi sosial cəhətdən həssas olaraq qalır və yoxsulluq həddinə düşmə riski altındadır. RYİL xəritəsi aşağıda göstərilmişdir.




**Şəkil 1: RYİL-nin xəritəsi**

İnvestisiya layihələrinin maliyyələşdirilməsinə dair Dünya Bankının Ətraf Mühit və Sosial Siyasətində (ƏMSS) göstərildiyi kimi, Ətraf Mühit və Sosial Standartlar (ƏMSS) Borcalanlara layihələrin mənfi ekoloji və sosial risklərinin və təsirlərinin qarşısını almaq, onları minimuma endirmək, azaltmaq və ya yüngülləşdirilməsinə kömək etmək məqsədilə təqdim olunur. Müvafiq olaraq, **ƏMSS10 – Maraqlı Tərəflərin Cəlb Olunması və Məlumatların Açıqlanması**[1] Borcalanla layihənin maraqlı tərəfləri arasında açıq və şəffaf əlaqənin vacibliyini vurğulayır və maraqlı tərəflərin səmərəli şəkildə cəlb olunması/iştirakı ilə layihələrin ətraf mühit və sosial davamlılığını artırmaq, layihənin qəbul edilməsini yüksəltmək və layihənin uğurlu dizaynına və həyata keçirilməsinə əhəmiyyətli töhfə verməK olar. Beləliklə, Bank Borcalandan layihənin mahiyyəti və əhatə dairəsi, potensial riskləri və təsirlərinə müvafiq olan Maraqlı Tərəflərin Cəlb Olunması Planını (MTCOP) hazırlamağı və həyata keçirməsini tələb edir.

Bu MTCOP, ƏMSS1-də göstərildiyi kimi layihənin ətraf mühit və sosial qiymətləndirməsinin və layihə dizaynı və icrasının ayrılmaz hissəsi kimi maraqlı tərəflərlə əlaqə yaratmaq məqsədi ilə ƏMSS10-a uyğun olaraq Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) komponentləri üçün hazırlanmışdır. Belə ki, ƏMSS1-ə əsasən ətraf mühit və sosial risklər və təsirlər qiymətləndirilməli və idarə olunmalı; beləliklə, layihələrin hazırlanması və həyata keçirilməsinin ekoloji və sosial baxımdan davamlı olması təmin edilməlidir.

## 1.2 Layihəyə ümumi baxış

Regional Yollar və İnkişaf Layihəsinin inkişaf məqsədi Salyan-Biləsuvar yol dəhlizi boyunca təhlükəsiz, səmərəli və iqlimə davamlı nəqliyyat əlaqəsini təmin etmək və bazara çıxışı yaxşılaşdırmaqdır. Bu, Azərbaycan Respublikası üçün Hökumət və Bankın yoxsulluğun azaldılmasına yönələn və nəqliyyat şəbəkələrinin post-COVID-19 pandemiyası dövründə yerli inkişaf və iqtisadiyyatın bərpası üçün imkan rolunu əks etdirən ilk təşəbbüslərdən biri olacaqdır. Bu cür yanaşma, yolun sərmayələrini iqtisadi, sosial siyasət və regional inkişafla sıx birləşdirərək sektorlar arası ölçüləri nümayiş etdirir.

Layihə aşağıdakı üç fəaliyyət sahəsini maliyyələşdirəcək:

(i) İlk fəaliyyət sahəsi yol infrastrukturuna və köməkçi aqro-logistika infrastrukturuna investisiyaların qoyuluşunu əhatə edəcəkdir. Bu investisiyalar, modernləşdirilmiş/ təkmilləşdirilmiş yol infrastrukturunun sosial-iqtisadi inkişafa təsirini maksimum dərəcədə artırmaq üçün yolların və bazarın əlçatanlığının dəstəklənməsinə kömək edəcəkdir. Qısa və orta müddətə etibarlı və dayanıqlı yol infrastrukturu ilə təkmilləşdirilmiş logistikanın birləşməsi ondan faydalanan icmalarda məhsuldarlığın, yeni məşğulluq imkanlarının və ev gəlirlərinin artması üçün şərait yaradacaqdır.

(ii) İkinci sahə, yerli icmalar üçün gəlir gətirmə imkanlarını yaxşılaşdırmaq məqsədilə yol kənarındakı obyektlərin (bazar yerləri, logistika obyektləri və digərləri arasında) dizaynını və təşkilini, yerli sahibkarlara bacarıqların artırılması üçün təlimlərin keçirilməsini dəstəkləyəcəkdir. Əvvəlki fəaliyyətlərin dizaynı/layihəsi, layihə üzrə investisiyaların həyata keçiriləcəyi yerləri və əsas tipini müəyyənləşdirmək və prioritetləşdirmək üçün icmanın səfərbər edilməsinə əsaslanacaqdır. Yol kənarındakı obyektlərin layihələndirilməsinin vacib tərəfi, bu obyektlərin ədalətli idarəetməsini və onların uzun müddətli istismarını və fəaliyyətini təmin edəcək uyğun idarəetmə modelinin yaradılmasına dəstək olmasıdır.

Третий поток будет поддерживать финансовую устойчивость и операционную эффективность в дорожном секторе через ТП для введения вариантов сборов с

[1] Mənbə (s. 53-64): http://documents1.worldbank.org/curated/en/383011492423734099/pdf/The-World-Bank-Environmental-and-Social-Framework.pdf

пользователей дорог, тем самым позволяя создавать новые источники доходов для содержания и эксплуатации дорог.

(iii) Üçüncü sahə, yol istifadəçilərindən ödənişin qəbul edilməsi variantlarını təqdim etmək məqsədilə TD vasitəsilə yol sektoru daxilində maliyyənin davamlılığını və əməliyyat səmərəliliyini dəstəkləyəcək və bununla da yolların saxlanılması və istismarı üçün yeni gəlir mənbələrinin inkişafına imkan yaradacaqdır. Bu fəaliyyət sahəsi çərçivəsində, həm də ağır nəqliyyat vasitələrinin həddindən artıq yüklənməsinin qarşısını almaqla pisləşən/korlanan yol şəbəkəsi problemini həll etmək üçün texniki dəstək (məsləhət) göstəriləcəkdir. Yolun istismar və xərclərinin lazımi səviyyədə olmasını təmin edən əlavə gəlir mənbələrinə və əməliyyat təkmilləşdirilmələrinə sahib olmaq, bu layihə və digər yol investisiyaları çərçivəsində təqdim olunan yol infrastrukturunun uzunmüddətli dayanıqlılığının/davamlılığının təmin olunmasına kömək edəcəkdir.

Regional Yollar və İnkişaf Layihəsinin məqsədlərinə uyğun olaraq dörd (4) komponentin aşağıdakı şəkildə həyata keçirilməsi nəzərdə tutulur:

**Cədvəl 1: RYİL/RCDP üzrə Komponentlər**

| Komponent | | Alt/subkomponent |
|---|---|---|
| **S/s** | **Adı** | |
| 1 | Yolların əlaqələndirilməsi | 1.1 Regional yolların bərpası |
| | | 1.2 Tikintiyə Texniki Nəzarət |
| 2 | Yol sektorunun dayanıqlılığı | 2.1 Yol şəbəkəsinin idarə edilməsi sisteminin inkişafı |
| | | 2.2 Yol istifadəçiləri üçün ödəniş modellərinin hazırlanması |
| | | 2.3 Yol oxunun həddindən artıq yüklənməsinin qarşısını alan sistemlərin inkişafı |
| 3 | Yerli inkişaf və logistika | 3.1 Yol kənarı bazar və logistika obyektlərinin inkişafı |
| | | 3.2 Məsləhət və təlim təşəbbüsləri |
| 4 | Layihənin İdarə Edilməsi və Təsirlərin Qiymətləndirilməsi | 4.1 Layihə İdarəetmə Qrupuna dəstək |
| | | 4.2 Əlavə əməliyyat büdcəsi |
| | | 4.3 Nəticənin ölçülməsi və Təsirin Qiymətləndirilməsi |

**Komponent 1 - Yolların Əlaqələndirilməsi**

**Alt komponent 1.1 – Regional yolların bərpası.** Bu alt komponent, M3 yolunun 31.9 və 103.3 km arasındakı seçilmiş hissələrinin (ilkin/mövcud yol oxu) bərpasını maliyyələşdirəcəkdir. Yol kənarındakı bazarların və logistik obyektlərin tikintisinin dəyəri də bu komponent çərçivəsində maliyyələşdiriləcəkdir (Komponent 3-də planlaşdırılmasına və layihələndirilməsinə baxmayaraq).

Yol hissəsi yerli/milli yol təsnifatına uyğun olaraq II dərəcəli/kateqoriyalı yol kimi mövcud yol oxu boyunca yenidən qurulacaqdır. Yolun 54.4 km ilə 60.0 km arasındakı hissə Salyan şəhərinin sərhədlərinə düşür və fiziki vəziyyəti daha yaxşı olduğu üçün daha yüngül bərpa işlərinin görülməsi nəzərdə tutulur. Yolun Salyan şəhəri sərhədləri daxilində km 54.4 ilə km 60.0 arasındakı bəzi hissələri mövcud texniki xüsusiyyətlərinə görə daha yüngül bərpa işlərinin görülməsini nəzərdə tutur. Layihə, əhalinin sıx yerləşdiyi yaşayış ərazilərinə düzgün xidmət göstərmək və M3 avtomobil yoluna etibarlı bir alternativ təmin etmək üçün dayanıqlı/davamlı bir yol təmin edəcəkdir. Xüsusilə, yol, drenaj sistemlərinin həcminin artırılması və körpülərin daşqın risklərinə uyğunlaşdırılması və digər dayanıqlıq həlləri daxil olmaqla, iqlimə davamlılıq tədbirləri ilə təkmilləşdiriləcəkdir. Artan təhlükəsizlik məsələləri təkmilləşdirilmiş çiyinləri, yüksək torpaq yatağı və viraj hissələrindəki qoruyucuları, təkmilləşdirilmiş lövhələri və s. əhatə edəcəkdir. Yerli sakinlərin ehtiyaclarının son dizaynda/layihədə nəzərə alınmasını və yerli icmaların, xüsusən də avtobus dayanacaqlarının yeri, keçidlərin və/və ya digər giriş nöqtələrinin yerləşməsi kimi məsələlərlə bağlı məlumatlandırmanı/əks əlaqəni təmin edə bilməsi üçün yolun bərpası layihəsi ilə bağlı məsləhətləşmələr aparılacaqdır.

**Alt komponent 1.2 – Tikintiyə Texniki Nəzarət.** Bu alt komponent, 1.1 alt komponentində yolun bərpası üçün tələb olunan texniki nəzarət xərclərini maliyyələşdirəcəkdir.

**Komponent 2 – Yol sektorunun dayanıqlılığı**

**Alt komponent 2.1 – Yol şəbəkəsinin idarə edilməsi sistemləri.** Ağıllı nəqliyyat sistemlərinin (ANS) tətbiqi yolu ilə şəbəkənin idarə edilməsi və əməliyyat səmərəliliyini artırmaq üçün Texniki Dəstək. TD, elektron ödənişlərin yığılması və ağır nəqliyyat vasitələrinin monitorinqi daxil olmaqla, şəbəkə daxilində idarəetmə sisteminin ehtiyaclarını və imkanlarını, habelə yol şəbəkəsinə təsir edəcək hava və geoloji təhlükələr barədə erkən xəbərdarlıq sistemləri daxil olmaqla digər Ağıllı nəqliyyat sistemləri (ANS) modullarını araşdıracaqdır. Alt komponent 2.1, alt komponentlər 2.2 və 2.3 üçün konteksti və arxitekturanı təyin edəcəkdir.

**Alt komponent 2.2 – Yol istifadəçiləri üçün ödəniş modellərinin hazırlanması.** Texniki Dəstək (TD), elektron ödəniş sistemi, yol viqneti və digər oxşar sistemlərdən istifadə edərək Yol istifadəçilərinə ödəniş tətbiq olunması (YİÖTO) sistemlərinin inkişafına xüsusi diqqət yetirəcəkdir. Texnologiya ödənişli tarifləri fərqləndirmək üçün yeni üsullar təklif edir ki, bu yollara ən çox ziyan vuran və ya daha çox emissiya edən nəqliyyat vasitələrinin daha çox pul ödəməsinə imkan verir və bu da araşdırılacaqdır. Bu araşdırmada, texniki-iqtisadi əsaslandırma, yol istifadəçilərinə ödəniş tətbiq olunması (YİÖTO) texnologiyasının seçimi, ofis üçün tələbləri, idarəetmə, ödənişlərin toplanması və mühasibatı, ödəmə istəyi, tənzimləmə məsələləri, ünsiyyət kampaniyaları/ məlumatlandırma, texniki şərtlər və digər aspektlər nəzərə alınmalıdır.

**Alt komponent 2.3 – Yol oxunun həddindən artıq yüklənməsinin qarşısını alan sistemlərin inkişafı.** Ağır nəqliyyat vasitələrinin həddindən artıq yüklənməsinə nəzarət etməklə, hərəkət çəkisi (HÇ) texnologiyası və digər nəqliyyat idarəetmə sistemləri vasitəsilə yolun vaxtından əvvəl aşınmasının qarşısını alan sistemlərə xüsusi diqqət ayırmaqla bağlı Texniki Dəstək göstərilmsi. Bu araşdırma, texniki-iqtisadi əsaslandırma, texnologiya seçimi, ofis üçün tələbləri, idarəetmə, icra və tənzimləmə məsələləri, texniki şərtlər və s. daxil olmaqla müfəssəl sənədlərin hazırlanmasını əhatə edəcəkdir.

**Komponent 3 – Yerli inkişaf və logistika**

**Alt komponent 3.1 – Yol kənarı bazar və logistika obyektlərinin inkişafı.** Bu alt komponent yol kənarı bazarın və logistika obyektlərinin planlaşdırılması, inkişafı və onların icrasına rəhbərlik etmək üçün TD-in maliyyəsini təmin edəcəkdir. İnvestisiya qoyuluşu yerli icmalarla və yerli hakimiyyət orqanlarının fəal iştirakı ilə planlaşdırma nəticəsində müəyyən ediləcək və layihələndiriləcəkdir. Vacib cəhət, faydalanan qruplar tərəfindən ədalətli istifadəni təmin edən və obyektin uzunmüddətli saxlanılması və istismarını təmin edən, obyektləri idarə etmək üçün uyğun bir modelin hazırlanmasına dəstək olacaqdır. Layihə yol kənarındakı mövcud bazarların və logistika obyektlərinin yaxşılaşdırılmasına və/ və ya seçilmiş ərazilərdə layihə yolu boyunca yeni obyektlərin yaradılmasına təsir edəcək. Alt komponentin fəaliyyətinin bir hissəsi olaraq qəbul edilən obyektlər kiçik bazarları, satış nöqtələrini, anbarları, soyuducu anbarları, qablaşdırma və paylama obyektlərini əhatə edəcək, lakin bunlarla məhdudlaşmayacaqdır.

**Alt komponent 3.2 – Məsləhət və təlim təşəbbüsləri.** Tədris planının hazırlanması və daha sonra layihə ərazisində fəaliyyət göstərən kiçik kənd təsərrüfatı məhsulları istehsalçılarına və aqro-logistika üçün xüsusi təlim və məsləhət xidmətləri göstərilməsi üçün TD-nin maliyyələşdirilməsi; məsələn, Salyandan Bakıya orqanik/üzvi qida məhsulları tədarük edən müəssisələr. Fəaliyyətlərə təhlükəsiz şəkildə işləmək və pandemiyanın yayılmasının qarşısını almaq üçün strategiyalar daxildir. Fermer qadınların və qadın sahibkarların ehtiyaclarına xüsusi diqqət yetiriləcək, lakin təlim layihə ərazisində yaşayan icmalardakı hər kəs üçün açıq olacaqdır. Alt komponent, birgə ehtiyacların

qiymətləndirilməsi və icmanın səfərbərlik işi ilə müəyyən ediləcək fermerlər, kooperativlər və iş qrupları kimi yerli faydalananların ehtiyaclarına uyğunlaşdırılacaqdır. Məsləhətçi və təlim təşəbbüsləri alt komponent 3.1 ilə də uyğunlaşdırılacaqdır. Məsləhət xidmətləri və təlimlər icma və kooperativ inkişafı, biznesin inkişafını, markalaşma, rəqəmsal savadlılıq (məsələn, e-ticarət və e-xidmət platformaları və tətbiqetmələrinin istifadəsində) və bu kimi sahələri əhatə edəcəkdir. Bəzi təlim fəaliyyətləri qadın sahibkarların ehtiyaclarına uyğunlaşdırılacaq və faydalananların ən azı 50 faizi qadınlar olacaqdır.

**Komponent 4: Layihənin İdarə Edilməsi və Təsirləri.** Maliyyələşdirmə, heyətin xərcləri, əlavə əməliyyat xərcləri, layihənin həyata keçirilməsini və icraçı təşkilatın idarəetmə qabiliyyətini dəstəkləmək üçün fərdi məsləhətçilərin xərcləri və maliyyə auditi xərcləri də daxil olmaqla müxtəlif layihə idarəetmə funksiyalarını dəstəkləyəcəkdir. Əlavə əməliyyat xərcləri AAYDA və LİQ işçiləri üçün təlim, ofis sahəsi və avadanlıqları, ofis üçün istehlak materialları, layihəni həyata keçirmək üçün tələb olunan nəqliyyat və sahə səfərləri, texniki, təhlükəsizlik və etibarlı aspektlərin idarə olunması üçün məsləhətçi köməyi, idarələrarası koordinasiya; nəticələrin monitorinqi; tamamlama icmalları, təsirlərin qiymətləndirilməsi və nəticələrin monitorinqi və s. üçün də maliyyələşməni də əhatə edəcəkdir. Bu komponent, həmçinin Layihə Fəaliyyəti üzrə Təlimatının (POM) hazırlanmasını maliyyələşdirəcək və ilk növbədə layihə üzrə podratçıları və yerli icmaları hədəf alan COVID-19 təcili yardım planının hazırlanmasını dəstəkləyəcəkdir.

Alt komponent 1.1 çərçivəsində həyata keçirilən layihədən əldə olunan iqlimdən faydalanmanın bir hissəsi olaraq, daha yüksək yay istiliyinə, artan intensivliyə və müddətə səbəb olacağı gözlənilən iqlim dəyişikliyinin təsirlərinə (çayda daşqınlara səbəb ola biləcək yağışların düşmə potensialı, yanğın riskinin artması gözlənilir) qarşı davamlılığı artırmaq üçün, yol işləri iqlimə davamlı dizayn və mühəndisi layihəni əhatə edəcəkdir. Belə ki, bərpa olunan köhnə M3 yolu yerli nəqliyyatın hərəkəti üçün daha yaxşı əlaqə və girişi təmin edəcək və layihələndirilən yol fövqəladə vəziyyətlərdə nəqliyyatın yeni M3 yolundan yönləndirilməsi/yayındırması üçün istifadə edilə bilər.

Yolun bərpası üzrə mühəndisi layihədə, suyun yığılması/toplanması üçün nəzərdə tutulmuş boru kəmərləri və yan drenajları, həmçinin yağıntı və axıntı haqqında məlumatlar da nəzərə alınacaqdır. Körpü infrastrukturu kənar və orta dayaqların lazımi dərəcədə qorunması, eroziyaya qarşı və ən yüksək daşqın axınlarına uyğun su yolu olan ərazilərlə dizayn ediləcəkdir. Eynilə, boru kəmərlərinin giriş və çıxış yerlərində eroziyadan qorunma təmin ediləcəkdir. Yığılan suların yolun əsas layı və əsasın alt laylarına daxil olmasının qarşısını almaq üçün tərs yan kanallarn səviyyəsi yol yatağından aşağıda layihələndirilməlidir. Zəlzələ və artan yağışlar sürüşməyə həssaslığı artıra bilər; bununla birlikdə, aşağı seysmik təhlükə və sürüşmə həssaslığına qarşı davamlılığı təmin etmək məqsədilə mühəndisi layihə standartları və uyğun keyfiyyətdə materiallar tətbiq ediləcəkdir. Yanğın təhlükəsi, tüstü, toz və yolun bağlanması səbəbindən, əlaqələrin qısa müddətli kəsilməsinə təsir edə bilər. Yol örtüyü və yol kənarındakı avadanlıqlar yanğından da zədələnə bilər, lakin bunlar yenidən üzlənmə yolu ilə düzəldilə bilər və ya davamlı bir təsir olmadan dəyişdirilə bilər.

Bu əlavə mülahizələrə/məsələlərə əsasən ümumən ictimaiyyət daha yaxşı əlaqələndirmədən və daha davamlı yollardan faydalanacaq ki, bu da hərəkətliliyin artması, malların daşınması üçün daha çox imkanlar yaradacaq və nəqliyyat təhlükəsizliyini artıracaqdır. Mövcud yararsız yol şəbəkəsi artıq nəzərdə tutulan xidməti göstərə bilmir və planlaşdırılmış bərpa işləri ilə bu iki rayonun nəqliyyat sistemləri yaxşılaşacaq, iqtisadiyyatı inkişaf etdiriləcək və yaşayış standartlarını yaxşılaşdıracaqdır.

## 1.3 MTCOP-nın məqsəd və vəzifələri

Bu Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) ümumi məqsədi *ƏMSS10-un aşağıda* göstərilən məqsədlərini nəzərə almaqla bütün layihə dövrü ərzində ictimaiyyətə açıqlama və məsləhətləşmələr də daxil olmaqla, maraqlı tərəflərin cəlb olunması/iştirakı üçün mütəşəkkil bir proqram yaratmaqdır:

- Borcalanlara maraqlı tərəflərin cəlb olunmasının müəyyənləşdirilməsində və onlarla, xüsusən də layihədən təsirlənən tərəflərlə konstruktiv əlaqələrin qurulmasında və davam etdirilməsində kömək edəcək maraqlı tərəflərin cəlb olunması işinə sistematik yanaşma yaratmaq;
- Layihə üçün maraqlı tərəflərin maraq və dəstək səviyyəsini qiymətləndirmək və layihənin hazırlanmasında, ətraf mühit və sosial fəaliyyətdə maraqlı tərəflərin fikirlərini nəzərə almağa imkan vermək;
- Layihədən təsirlənə biləcək məsələlərdə layihənin təsiri altında olan tərəflərlə layihə müddətində təsirli və əhatəli ünsiyyət qurmağı təbliğ/təşviq etmək və təmin etmək;
- Layihə üzrə ətraf mühitə və sosial risklərə, təsirlərə dair müvafiq məlumatların maraqlı tərəflərə vaxtında, başa düşülə bilən, əlçatan və uyğun şəkildə açıqlanmasını və maraqlı tərəflərin cəlb olunmasını/iştirakını və məlumatların açıqlanmasını təmin etmək; və
- Layihədən təsirlənən tərəflərə məsələləri qaldırmaq və şikayət etmələri üçün onları əlçatan və əhatəli vasitələrlə təmin etmək və Borcalanların bu şikayətləri idarə etməsinə və onlara cavab verməsinə imkan vermək.

MTCOP, imkansız və həssas qruplar da daxil olmaqla potensial fərqli tərəfləri müəyyənləşdirmək, alt qrupların hər birinə çatmaq üçün bir yanaşma inkişaf etdirmək, Layihənin təsirinə məruz qalan tərəflər (LTMQT-lər) və digər maraqlı tərəflərin (DMT) narahatlıqlarını ortaya qoya biləcəyi bir mexanizm yaratmaq, təklif edilən layihə ilə əlaqəli ətraf mühit və sosial riskləri minimuma endirmək, azaltmaq üçün rəy vermək və ya şikayət etmə yollarını təqdim edir. Ümumilikdə, MTCOP aşağıdakı məqsədlərə xidmət edir *(ƏMSS10)*:

Maraqlı şəxslərin müəyyənləşdirilməsi və təhlili;
(i) Maraqlı tərəflərin cəlb olunmasının necə baş verəcəyinin planlaşdırılması;
(ii) Məlumatların açıqlanması;
(iii) Maraqlı tərəflərlə məsləhətləşmələr;
(iv) Şikayətlərə baxılması və cavablandırılması; və
(v) Maraqlı tərəflərə hesabatın verilməsi.

# 2 QAYDALAR VƏ TƏLƏBLƏR

## 2.1 Azərbaycanın müvafiq milli/yerli qanun və qaydaları

### 2.1.1 Məşğulluğa dəstəklə bağlı Əsas Qanunvericilik

Maraqlı Tərəflərin Cəlb Olunması ilə əlaqədar olaraq - **Azərbaycan Respublikasının Konstitusiyası** (12 Noyabr 1995), digər qanunlar arasında ölkənin əsas qanunu olaraq, Azərbaycan vətəndaşlarının məşğulluğu üzrə qanunvericilik prinsipini müəyyənləşdirir; bununla da, aşağıdakıları təmin edir:

- Mülki iştirak hüququ *54.1-ci maddədə* nəzərdə tutulur - "Azərbaycan Respublikası vətəndaşlarının dövlətin ictimai və siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır".
- Məlumat azadlığı – Konstitusiya üç cəhətdən məlumat almaq hüququnu təmin edir:
  (i) *Maddə 39* (Sağlam ətraf mühitdə yaşamaq hüququ) – "Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini/kompensasiya almaq hüququ vardır";
  (ii) *Maddə 50* (Məlumat azadlığı) aşağıdakıları təmin edir
    - Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır;
    - Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.
  (iii) *Maddə 57, paraqraf 1* - Vətəndaşlara dövlət orqanlarına müraciət etmək hüququ veir.

Azərbaycan Respublikasının **Əmək Məcəlləsi** *(1 fevral 1999-cu il tarixli, 618-IQ saylı)* işçilərlə işəgötürənlər arasındakı münasibətləri, habelə onlar ilə müvafiq yerli/milli orqanlar və müəssisələr arasındakı münasibətlərdən irəli gələn digər hüquq münasibətlərini tənzimləyən əsas qanunvericilik aktıdır. Məcəllədə sağlamlıq və təhlükəsizliklə bağlı tələblər və prinsipləri də nəzərdə tutulur. Bundan əlavə, qadınların və azyaşlıların da iş şəraiti müəyyənləşdirilmişdir.

**"Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli, 1196-VQ nömrəli Qanunu** məşğulluq sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, habelə əmək sahəsində vətəndaşlara və işsiz şəxslərə sosial müdafiə sahəsində dövlət zəmanətlərini müəyyənləşdirir. Bu yeniləmə "Məşğulluq haqqında" əvvəlki, 2 iyul 2001-ci il tarixli qanunu əvəz edir.

**"Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 5 oktyabr 2004-cü il tarixli, 768-IIQ nömrəli Qanunu** (12 may 2006-cı il tarixli 109-IIIQD Qanunları və 6 mart 2007-ci il tarixli 260-IIIQD Qanunları ilə dəyişiklik edilmiş) Azərbaycan Respublikasında yaşayış minimumunun müəyyənləşdirilməsinin prinsipləri, qaydaları və dövlət dəstəyini, habelə ölkədəki sosial və iqtisadi inkişafla uyğunluğun artırılmasını izah edir.

Azərbaycan 1992-ci ildə Beynəlxalq Məşğulluq Təşkilatına (BƏT) üzv oldu və **bu günə qədər 7 mühüm Konvensiya** (29 saylı “Məcburi Əmək”, 111 saylı “Ayrı-seçkilik (Məşğulluq və Peşə)”), 122 saylı “Məşğulluq siyasəti”, 88 saylı “Məşğulluq xidməti”  “Peşə Reabilitasiyası və Məşğulluğa (Əlil şəxslər)” dair 159 saylı Konvensiya) daxil olmaqla, bu təşkilatın **60 Konvensiyanı təsdiqlədi.**

### 2.1.2 Vətəndaşların cəlbedilməsi və ictimaiyyətə açıqlama  ilə əlaqədar milli/yerli hüquqi müddəalar

**“Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli, 1308-IVQ nömrəli Qanunu.** Qanuna görə, hər hansı bir vətəndaşın dövlət və bələdiyyə orqanlarına, dövlətə və ya bələdiyyəyə məxsus hüquqi şəxslərə yazılı və ya şifahi şəkildə müraciət etmək hüququ vardır və bu müraciətlər Ombudsmana müraciətlərdən və ya məlumat tələblərindən fərqli prosedura malikdir və anonim ola bilməz.

**“Məlumat əldə etmək hüququ haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanunu.** Bu Qanun Konstitusiyanın 50-ci maddəsində göstərilən azad, məhdudiyyətsiz və bərabər məlumat əldə edilməsini təmin etmək üçün hər hansı bir şəxsin birbaşa və ya nümayəndəsi vasitəsi ilə məlumat sahibinə müraciət etmək və məlumat əldə etməyin növü və formasını seçmək hüququna malik olan qanuni çərçivəni müəyyənləşdirir.

**“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli, 816-IVQ nömrəli Qanununu.** Bu qanun Konstitusiyanın *49-cu maddəsinə* (Sərbəst toplaşmaq azadlığı) uyğun olaraq vətəndaşların dövlət idarəçiliyinin həyata keçirilməsinə cəlb olunması çərçivəsini təmin edir və tənzimləyir. Qanunda ictimai iştirakçılıq aşağıdakılardan ibarətdir:

- Dövlət və ictimai həyatın müxtəlif sahələrində iştirak, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi, milli və yerli qərarların qəbul edilməsi;
- Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının fəaliyyətinə ictimai nəzarətdə iştirak;
- Vətəndaş cəmiyyəti institutlarının dövlət və yerli özünüidarə orqanlarının ictimaiyyətlə məsləhətləşmələri prosesində və ictimai rəyin öyrənilməsində iştirakı (İctimai Şuralar vasitəsilə).

Qanun aşağıdakı ictimai iştirakçılıq formalarını nəzərdən keçirir:

- Mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarə orqanları yanında **İctimai Şuralar;**
- İctimai əhəmiyyətli qərarların qəbulu zamanı **ictimai müzakirələr**;

- Qanunvericilik aktları layihələri, dövlət və ictimai həyatın müxtəlif məsələləri üzrə **ictimai dinləmələr**;
- İctimai rəyin **öyrənilməsi**;
- Qanun layihələrinin **ictimai müzakirəsi**;
- Vətəndaş cəmiyyəti institutlarının hüquqi aktların layihələri ilə bağlı fikirlərinin öyrənilməsinə dair **yazılı məsləhətləşmələr**.

Təsvir edilmiş qanunvericilik aktlarına əlavə olaraq, ətraf mühit və sosial təsirlərin qiymətləndirilməsi prosesi, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məlumatların açıqlanması və maraqlı tərəflərin cəlbedilməsi/iştirakı fəaliyyətlərini də əhatə etməlidir.

**Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Qanunu (ƏMTQ Qanunu, 2018)** Ətraf Mühitə Təsirin Qiymətləndirilməsinin əhatə dairəsini, prosedurunu və məsuliyyətini, həmçinin ətraf mühitin qiymətləndirilməsi zamanı ictimai məsləhətləşmələr və məlumatların açıqlanması tələblərini əhatə edir.

Qanuna görə, Sifarişçi (İcraçı Agentlik) nəzərdə tutulan fəaliyyətə başlamazdan əvvəl KİV və ictimai dinləmələr vasitəsilə layihə ərazisindəki yerli əhalini və cəmiyyəti məlumatlandırmalı və onlara ƏMTQ nəticələri barədə məlumat verməlidir (Maddə 12.1.4).

Sifarişçi "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq fiziki şəxsləri, hüquqi şəxsləri və əmlak sahiblərini də cəlb etməklə ictimai dinləmələr aparmalıdır (Maddə 4.10). İctimai dinləmələrin və müzakirələrin nəticələri barədə məlumat ƏMTQ sənədinə daxil edilməlidir (Maddə 5.3.12).

Qanun bələdiyyələrin ictimai dinləmə fəaliyyətləri üçün məsuliyyətlərini də müəyyənləşdirir (Maddə 11). Beləliklə, layihənin (və ya nəzərdə tutulan fəaliyyətin) həyata keçirildiyi ərazidəki müvafiq bələdiyyə ƏMTQ-nin həyata keçirilməsində iştirak etməli və ƏMTQ sənədinin hazırlanması üçün lazım olan məlumatları təqdim etməlidir. Bundan əlavə, bələdiyyələr fiziki və hüquqi şəxslərə, əmlak sahiblərinə, eləcə də digər maraqlı tərəflərə (qeyri-hökumət təşkilatları, vətəndaş təşəbbüs qrupları, bələdiyyələrin rayon komitələri və s.) onların istəkləri ilə ictimai məsləhətləşmələrdə iştirak etmələrinə kömək etməlidirlər.

Bundan əlavə, insanlar və vətəndaş cəmiyyəti institutları sifarişçi və planlaşdırma təşkilatının ƏMTQ ilə bağlı açıq dinləmələr keçirməsini tələb etmək hüququna malikdirlər (13.2.2).

Eynilə, **Torpaqların dövlət ehtiyacı üçün alınması haqqında Qanunun (2010)** 15-ci maddəsi, sosial təsir məsələləri ilə bağlı toplantıların/görüşlərin keçirilməsini tələb edir. İctimai görüşlər Sifarişçi tərəfindən təşkil olunmalı və sənədləşdirilməlidir. Bu məsləhətləşmələrin məqsədi yerli sakinlərin, maraqlı tərəflərin və ya təşkilatın nümayəndələrinin təklif olunan layihə ilə bağlı hər hansı bir açıqlama və ya etirazlarını dinləmək və qeyd etmək, alternativ təklifləri müzakirə etmək, habelə şikayətlərin baxılması prosesi və digər məsələlər barədə ictimaiyyəti məlumatlandırmaqdır.

Qanun, torpaqların alınması və köçürülməsi ilə əlaqəli məlumat və sənədlərin ictimai məsləhətləşmələr və rəsmi elanlar yolu ilə açıqlanması tələbini də nəzərdə tutur. Xüsusilə, 14-cü Maddə Sifarişçidən təsirə məruz qalmış torpaqların yerləşdiyi ərazidə təsirə məruz qalan torpaq/ əmlak barədə rəsmi elan yaymasını və bu elanı təsirə məruz qalan şəxslərə çatdırmaq üçün bütün tədbirlərin görülməsini tələb edir. Yuxarıda göstərilən qanunvericilik ümumi vətəndaşlığın ictimai maraqlar məsələsində əlaqələrinin təmin edilməsində müsbət addımlar sayılır. Buna baxmayaraq,

Azərbaycanda Ətraf Mühitə dair Qərar-Qəbul edilməsində İctimai İştirakı üzrə bir araşdırmada[2] aşağıdakı müşahidələr aparılmışdır:

- İctimai Ətraf Mühit Qiymətləndirməsinə (İƏMQ) istinad edilməsinə baxmayaraq, Ətraf Mühitin Mühafizəsi/Qorunması haqqında Qanun, "İƏMQ-nin nəticələri tövsiyə və məlumat xarakteri daşıyır" ifadəsi xaricində ictimai iştirak prosesi ilə qərar qəbuletmə arasında hər hansı bir əlaqəni təmin etmir;
- Qanunvericilik və tənzimləyici bazalarda/çərçivələrdə ətraf mühitlə bağlı ictimai dinləmələrin keçirilməsi üçün aydın prosedurlar mövcud deyil;
- Tədqiqat/araşdırma, əlavə olaraq, bu boşluqların, Arhus Konvensiyasına uyğun olaraq mövcud qanunvericilik və tənzimləyici bazaların/çərçivələrin yenidən nəzərdən keçirilməsini və inkişaf etdirilməsini tövsiyə edir.

İrəli bir addım olaraq AAYDA, vətəndaşların iştirakı və məlumatların açıqlanması ilə əlaqədar qanuni tələblərə uyğunluğu təmin etmək üçün yuxarıda göstərilən müvafiq qanunvericilik və qeydləri nəzərə almalıdır.

## 2.2 Dünya Bankının Maraqlı Tərəflərin Cəlb Olunmasına dair Ətraf Mühit və Sosial Standartları

Dünya Bankının 1 oktyabr 2018-ci il tarixində qüvvəyə minmiş Ətraf Mühit və Sosial Çərçivə Sənədi (ƏMSÇS), Ətraf Mühit və Sosial Standart (ƏMSS) 10, "Maraqlı Tərəflərin Cəlbedilməsi və Məlumatların Açıqlanması"nı da əhatə edir. Bu ƏMSS10, layihələrin ətraf mühit və sosial davamlılığını yaxşılaşdırmaq, layihənin qəbul edilmə imkanını artırmaq və layihənin uğurlu hazırlanmasına və həyata keçirilməsinə əhəmiyyətli töhfə verə bilən "Borcalan və layihənin maraqlı tərəfləri arasında yaxşı beynəlxalq təcrübənin mühüm elementi kimi açıq və şəffaf əlaqələrin vacibliyini" tanıyır *(ƏMSS10, bənd 1)*.

ƏMSS10 Borcalanın layihənin icra müddətində inklyuziv bir proses kimi maraqlı tərəflərlə əlaqənin təşkil olunmasını tələb edən İnvestisiya Layihəsinin Maliyyələşdirilməsi vasitəsi ilə Bankın dəstəklədiyi bütün layihələrə tətbiq olunur *(ƏMSS 10, bənd 2)*. Dünya Bankının ƏMSÇ-nə uyğun olaraq ƏMSS10 aşağıdakıları müəyyən edir *(ƏMSS10-nun 6-9-cu bəndləri)*:

- Borcalanlar, layihənin icra müddətində maraqlı tərəflərlə əlaqə quracaq, bu əlaqəni layihənin hazırlanması prosesində mümkün qədər erkən və layihənin hazırlanması ilə bağlı maraqlı tərəflərlə məsləhətləşməyə imkan verən bir müddət ərzində başlayacaqlar. Maraqlı tərəflərin iştirakının mahiyyəti, əhatə dairəsi və tezliyi layihənin mahiyyəti, əhatə dairəsi və potensial riskləri və təsirləri ilə mütənasib olacaqdır.
- Borcalanlar, bütün maraqlı tərəflərlə dolğun məsləhətləşmələr aparacaqlar. Borcalanlar, maraqlı tərəflərə vaxtında, uyğun, başa düşülə bilən və əlçatan məlumatlar verəcək və manipulyasiya, müdaxilə, məcburetmə, ayrıseçkilik və hədə-qorxu/təhdid olmadan mədəni cəhətdən uyğun bir şəkildə onlarla məsləhətləşmələr aparacaqlar.
- Maraqlı tərəflərin cəlb olunması/iştirakı prosesi, ƏMSS-da göstərildiyi kimi aşağıdakıları əhatə edəcəkdir: (i) maraqlı tərəflərin müəyyənləşdirilməsi və təhlili; (ii) maraqlı tərəflərin cəlb olunması/iştirakı üçün planlaşdırma; (iii) məlumatların açıqlanması; (iv) maraqlı tərəflərlə məsləhətləşmə; (v) şikayətlərə baxılması və onlara cavab verilməsi; və (vi) maraqlı tərəflərə hesabat vermək.
- Borcalan ətraf mühit və sosial qiymətləndirmənin bir hissəsi olaraq, müzakirə olunan maraqlı tərəflərin təsviri, alınan rəylərin xülasəsi və rəyin necə nəzərə alındığı, ya da bunun olmamasının səbəbləri barədə qısa məlumat daxil olmaqla, maraqlı tərəflərin cəlb olunmasının/iştirakının sənədləşdirilmiş qeydini aparacaq və məlumat açıqlayacaq.

[2] Xəzər Enerji və Ətraf Mühit Mərkəzi (XEƏM/CCEE). 26 avqust 2020. Ətraf Mühitə dair Qərar-Qəbul edilməsində İctimai İştirak: Azərbaycan İşi – Analiz. Bu səhifədə mövcuddur <http://ccee.ada.edu.az/ccee-policy-brief-no-41-public-participation-in-environmental-decision-making-the-case-of-azerbaijan/>

*ƏMSS10-nun 21-ci bəndi* “maraqlı tərəflərə layihənin riskləri, təsirləri və təsirlərin azaldılması tədbirləri barədə fikirlərini bildirmə imkanları yaradan və Borcalanın onlara baxıb cavab verməsinə imkan verən dolğun məsləhətləşmələrin aparılması zərurəti” mövzusunda mənalı məsləhətləşmələr aparılacaqdır. *ƏMSS10-nun 21-ci bəndi* "dolğun məsləhətləşməni" ikitərəfli bir proses kimi aydınlaşdırır, bunlar:

(a) Layihə təklifinə dair ilkin fikirləri toplamaq və layihələndirmə ilə bağlı məlumatların əldə edilməsi üçün layihə planlaşdırma prosesinin əvvəlindən başlayır;
(b) Maraqlı tərəflərin rəylərini, xüsusilə, ətraf mühit və sosial risklərin və təsirlərin müəyyənləşdirilməsində və azaldılmasında məsələlərin, təsirlərin və imkanların xüsusiyyəti inkişaf etdikcə, davamlı olaraq maraqlı tərəflərin layihələndirməyə cəlb olunma/iştirakla bağlı məlumatlandırma yolu kimi təşviq etdirir;
(c) Risklər və təsirlər meydana çıxdıqca məsləhətləşmələr davam etdirilir;
(d) Aktual, şəffaf, obyektiv, dolğun və asanlıqla əldə edilə bilən məlumatların maraqlı tərəflərlə konstruktiv məsləhətləşmələri mədəni cəhətdən uyğun bir şəkildə, müvafiq yerli dillərdə və maraqlı tərəflər üçün başa düşülən şəkildə təmin edəcək bir müddət ərzində məlumatların əvvəlcədən açıqlanması və yayılmasına əsaslanır;
(e) Rəyləri nəzərdən keçirir və cavablandırır;
(f) Layihədən təsirlənən tərəflərin aktiv və hərtərəfli cəlb olunmasını/iştirakını dəstəkləyir;
(g) Xarici manipulyasiya, müdaxilə, məcburetmə, ayrıseçkilik və təhdiddən azaddır; və
(h) Borcalan tərəfindən sənədləşdirilir və açıqlanır

# 3 MARAQLI TƏRƏFLƏRİN ƏVVƏLKİ CƏLB OLUNMA FƏALİYYƏTLƏRİNİN QISA XÜLASƏSİ

2019-cu ilin oktyabr ayında, ilk növbədə, layihənin hazırlanması, xüsusilə fəaliyyət istiqamətləri barədə məlumat vermək üçün layihə ərazisindəki müvafiq inkişaf ehtiyaclarını və yerli əhalinin layihə fəaliyyətləri ilə bağlı prioritetlərini anlamaq məqsədi ilə layihə üzrə sosial-iqtisadi araşdırma aparıldı, bazarın əlçatanlığını yaxşılaşdırmaq üçün əlavə kiçik infrastruktur və xidmətlər və gender fərqi təhlili edildi. Araştırma/sorğu bir sıra Fokus Qrup Müzakirələrindən (FQM) və Salyan - Biləsuvar yolu boyu kəndlərdə/qəsəbələrdə aparılan Təfsilatlı Müsahibələrdən (TM) ibarət idi. Bu araşdırma Regional Yollar və İnkişaf Layihəsi (RYİL) insanlara tanıdıldı və layihənin potensial təsirinə məruz qalan tərəflərin ilkin maraqlı tərəflər kimi cəlb olunmasına xidmət etdi.

COVID-19 pandemiyası səbəbindən hamının (AAYDA-nın işçiləri, Məsləhətçi və geniş ictimaiyyət) təhlükəsizliyi ilə bağlı narahatlıqların artması səbəbi ilə, maraqlı tərəflərlə normal fəaliyyət, bu mövzuda hökumətin verdiyi tövsiyələrə uyğun olaraq təxirə salındı.

Əlavə məlumat Regional Yollar və İnkişaf Layihəsi (RYİL) ilə bağlı İctimai Məsləhətləşmələr AAYDA/LİQ tərəfindən təşkil edildikdən sonra veriləcəkdir.

# 4 MARAQLI TƏRƏFLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ TƏHLİLİ

Ətraf Mühit və Sosial Standartlar 10-da (ƏÇSS10/ESS10), aşağıdakı şəxslərə və ya qruplara aid olan "maraqlı tərəf"-in izahı təqdim edilir: (a) layihədən təsirlənən və ya təsirə məruz qalma ehtimalı olan (layihənin təsirinə məruz qalan tərəflər); və (b) layihədə marağı ola bilən (digər maraqlı tərəflər).

## 4.1 Layihənin Təsirinə Məruz Qalan Tərəflər

**Layihənin Təsirinə Məruz Qalan Tərəflər** (LTMQT), layihədən təsirlənən və ya təsirə məruz qalma ehtimalı olan, xüsusi hallara görə İmkanları məhdud və ya həssas ola biləcək tərəflərdir. Bu qrup, layihənin mənfi təsirinə daha çox məruz qalır və/və ya layihədən faydalanma qabiliyyəti digərlərindən daha məhduddur *(ƏMSS10, 5 və 11-ci bəndlər)*

İkincili dərəcəli yolun yenidən qurulacağı Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) I Komponenti üzrə Layihənin Təsirinə Məruz Qalan Tərəflər aşağıda göstərilmişdir.

**Cədvəl 2: I Komponent üzrə Layihənin Təsirinə Məruz Qalan Tərəflər**

| Əsas Maraqlı Tərəflər Qrupu | Layihə Ərazisinin Maraqlı Tərəfi |
|---|---|
| Yolun alt layihələri boyunca əmlak sahibləri | Özəl torpaq sahibləri |
| | Torpaqları və ya əmlakları yol işlərinin təsirinə məruz qala bilən dövlət və xüsusi torpaq sahələrinin sahibləri (kənd, rayon və ya milli səviyyəli) |
| | Torpaqlara sahib olan təşkilatlar (dini, ictimai-vətəndaş və digər qruplar) |
| Yol istifadəçiləri qrupları | Piyadalar |
| | Nəqliyyat istifadəçiləri |
| | Nəqliyyat vasitələri istifadəçiləri |
| | Uzun məsafəyə səyahət edənlər |
| | Layihə yolu yaxınlığında yerli sakinlər |
| | Fərdi nəqliyyat istifadəçiləri |
| | Yol kənarındakı ticarətçilər |
| | Yol layihəsinin yerli sakinləri |
| | Yol layihəsinin yeri |
| | Yerli nəqliyyat (Mikrobüs) |
| | Taksi sürücüləri |
| | Şəxsi sərnişin daşıyıcıları |
| | Yerli idarəetmə (Rayon) |
| Layihənin müsbət və ya mənfi təsirlənə məruz qala biləcək, layihə ərazisində yerləşən müəssisələr | Restoranlar və ictimai iaşə obyektləri |
| | Mağazalar |
| | Avtomobillərin yuyulması |
| | Şəxsi məhsullar |
| | Turistlər üçün kiçik özəl otellər |
| | Fermer bazarları (həm rəsmi, həm də qeyri-rəsmi ticarətçilər) |
| | Digər xidmətlər |
| Layihənin müsbət və ya mənfi təsirlənə məruz qala biləcək hədəf bölgələrdə yerləşən müəssisələr | Sakinlər və icma üzvləri |
| | Fermer bazarları (rəsmi və qeyri-rəsmi ticarətçilər) |
| | Restoranlar |
| | Digər xidmətlər |

Köməkçi aqro-logistika infrastrukturunun, Məsləhət və Təlim Təşəbbüslərinin inkişafına səbəb olacaq III komponent üzrə, ilkin olaraq Layihənin Təsirinə Məruz Qalan Tərəflər aşağıda göstərildiyi kimi qruplaşdırılmışdır.

**Cədvəl 3: III Komponent üzrə Layihənin Təsirinə Məruz Qalan Tərəflər**

| Əsas Maraqlı Tərəflər Qrupu | Layihə Ərazisinin Maraqlı Tərəfi |
|---|---|
| Yerli istehsalçılar | Torpaq sahibi olan fermerlər |
| | İcarədar fermerlər |
| | Muzdlu təsərrüfat işçiləri |
| | Uzun məsafəyə səyahət edənlər |
| | Təsərrüfat məhsullarının yerli emalçıları/istehsalçıları |
| | Təsərrüfat məhsulları üçün qablaşdırıcılar |
| | Yol kənarındakı ticarətçilər |
| | Yol layihəsinin yerli sakinləri |
| | Yol layihəsinin yeri |
| | Yerli nəqliyyat (Mikrobüs) |
| | Taksi sürücüləri |
| | Şəxsi sərnişin daşıyıcıları |
| | Yerli idarəetmə (Rayon) |
| Xidmət təminatçıları | Məhsul alverçiləri və alıcıları |
| | Yük maşınları və məhsul daşıyıcıları |
| | Bazar/mağaza satıcıları |
| | Təsərrüfat məhsulları satanlar |
| | Təsərrüfat məhsullarının emalı müəssisələrinin sahibləri |
| | Turistlər üçün özəl otellər |
| | Bazarlar (rəsmi və qeyri-rəsmi ticarətçilər) |
| | Digər xidmətlər |
| Fermer təsərrüfatları ilə əlaqəli müəssisələr | Sakinlər və icma üzvləri |
| | Bazarlar (rəsmi və qeyri-rəsmi ticarətçilər) |
| | Otellər və restoranlar |
| | Digər xidmətlər |

*Qeyd: Covid-19 pandemiyası səbəbindən qruplar və təşkilatların xüsusi adları verilməmişdir, lakin MTCOP çərçivəsində maraqlı tərəflərin iştirakı prosesi zamanı, maraqlı tərəflərin iştirakı ilə əlaqəli olan əsas birliklər və firmaların müəyyənləşdirilməsi davam etdiriləcəkdir.*

II komponent - Yol Sektorunun Dayanıqlılığına Texniki Dəstəyin göstərilməsi aşağıdakılara səbəb olacaqdır: (i) Yol Şəbəkəsinin İdarə Edilməsi Sisteminin İnkişafı; (ii) Yol İstifadəçiləri üçün Ödəniş Modellərinin hazırlanması; və (iii) Yol Oxunun Həddindən Artıq Yüklənməsinin Qarşısını Alan Sistemlərin inkişafı. Texniki Dəstək nəticəsində yol sektorunda maliyyənin davamlılığını və əməliyyatın səmərəliliyini dəstəkləyəcək, bu layihə və digər yol investisiyaları çərçivəsində təqdim olunan yol infrastrukturunun uzunmüddətli dayanıqlılığının təmin olunmasına kömək edəcək bir tədqiqat olacaqdır. Layihənin Təsirinə Məruz Qalan Tərəflər əsasən dövlət qurumları, yol istifadəçiləri (ödənişli yoldan / ödəniş modellərindən təsirlənə biləcək özəl və ticarət tipli istifadəçilər) və tədqiqat məqsədi ilə müvafiq məlumat verə biləcək əsas məlumat verənlər olacaqdır. Bu qruplara təsirlər minimal olacaq və buna görə də maraqlı tərəflərin iştirakı fəaliyyətləri lazım olmaya bilər.

## 4.2 Digər Maraqlı Tərəflər

**Digər Maraqlı Tərəflər** (DMT) layihədə marağı ola bilən və layihənin təsirləri, təsir azaltma mexanizmləri və faydaları ilə bağlı fərqli narahatlıq və prioritetlərə/üstünlüklərə sahib olan və fərqli və ya ayrı-ayrı cəlb olunma/iştirak formaları tələb edə bilən şəxslərdir *(ƏMSS10, 5 və 11-ci bəndlər)*. Ümumiyyətlə, bunlar layihənin həyata keçirilməsinə təsir göstərmək və qərar qəbul etmək imkanı olan və/və ya layihəyə marağı olan insanlar, sosial qruplar və təşkilatlardır. Bu qrupa layihədən faydalana biləcək dövlət qurumları, Qeyri Hökumət Təşkilatları (QHT) və özəl müəssisələr daxildir.

Regional Yollar və İnkişaf Layihəsinin hər üç komponentinin aşağıda göstərildiyi kimi eyni Digər Maraqlı Tərəfləri paylaşması nəzərdə tutulur.

**Cədvəl 4: Regional Yollar və İnkişaf Layihəsinin Digər Maraqlı Tərəfləri**

| Əsas Maraqlı Tərəflər Qrupu | Layihə üzrə Maraqlı Tərəf |
|---|---|
| Nazirliklər və dövlət təşkilatları | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) |
| | Maliyyə Nazirliyi |
| | İqtisadiyyat Nazirliyi |
| | Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi (SMEDA) |
| | Fövqəladə Hallar Naziri |
| | Kənd Təsərrüfatı Naziri |
| | Ekologiya və Təbii Sərvətlər Naziri |
| | Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri |
| | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri |
| | Rayon Yerli İcra Hakimiyyətləri |
| Vətəndaş cəmiyyəti təşkilatları | Yerli QHT-lər, Sosial İqtisadiyyat Təşkilatlarının Həmkarlar İttifaqları; Vəqflər; Sosial Müəssisələr; Kooperativlər və Kredit İttifaqları. |
| Layihəni inkişaf etdirən digər qurumlar<br>Beynəlxalq QHT-lər və icraçı agentliklər | Layihəni inkişaf etdirən digər qurumlar, Beynəlxalq QHT-lər və icra agentlikləri (məsələn, BMTİP, GIZ və s.) |

*Qeyd: Covid-19 pandemiyası səbəbindən qruplar və təşkilatların xüsusi adları verilməmişdir, lakin MTCOP/SEP çərçivəsində maraqlı tərəflərin iştirakı prosesi zamanı, maraqlı tərəflərin iştirakı ilə əlaqəli olan əsas vətəndaş cəmiyyəti təşkilatları həmkarlar ittifaqları, kooperativlər və kredit ittifaqları və ətraf mühit qruplarının müəyyənləşdirilməsi davam etdiriləcəkdir.*

### 4.3 İmkanları məhdud/ həssas insanlar və ya qruplar

İmkanları məhdud/ həssas insanlar və qruplar narahatlıqlarını ifadə etmək və ya layihənin təsirlərini başa düşmək üçün səsə və vasitəçiyə sahib olmayan və bununla da maraqlı tərəflərin cəlbedilməsi/iştirakı və ya layihənin faydalarından kənarlaşdırıla bilənlərdir.

Bu layihə çərçivəsində həssas qruplara əlillər, 15 yaşınadək (bəzi məhdudiyyətlərlə qanuni işə yarayan yaş) beşdən çox uşağı olan çoxuşaqlı ailələr, gənclər, qadınlar və ailə başçı qadınlar, yoxsul kimi qeydiyyatdan keçmiş ailələr, dolanışıq imkanları olmayan yaşlı üzvləri olan ailələr (və ya qazancı olmayan) və əlil üzvləri olan ailələr, habelə məcburi köçkünlər) daxil ola bilər.

Layihə, bu qrupların layihə ilə əlaqəli məlumat alınmasını, onlarla məsləhətləşməni və layihədə iştirak etmələərini, layihə ilə bağlı fikirlərini və narahatlıqlarını ifadə etmək üçün vasitələrə sahib olmalarınıı təmin etmək üçün fərqli tədbirləri özündə birləşdirəcəkdir.

Salyan və Biləsuvarda sakinlərlə ictimai məsləhətləşmələr aparıldıqdan sonra həssas və imkansız qrupların ifadə etdikləri məsələlər və narahatlıqlar Maraqlı Tərəflərin Cəlb Olunması Planına (MTCOP) daxil edilmişdir.

### 4.4 Maraqlı tərəflərin layihəyə olan maraq və təsirinin xülasəsi

Mövcud məlumatlara əsasən, vəziyyətlərini daha yaxşı başa düşmək və lazımi qaydada idarə etmək üçün maraqlı tərəflərin maraq və layihə təsirləri müəyyənləşdirildi. Layihənin təsirinə məruz qalmış ərazilərdə məsləhətləşmələr və müzakirələr “layihənin hazırlanması prosesində mümkün qədər erkən başlayacaq və layihənin dizaynı/hazırlanması ilə əlaqədar maraqlı tərəflərlə

konstruktiv/dolğun məsləhətləşmələrin aparılmasına imkan verən bir müddətdə" aparılacaqdır *(ƏMSS10, bənd 6)*. İctimaiyyətlə məsləhətləşmədə, Regional Yollar və İnkişaf Layihəsi və onun məqsədləri barədə fikir və düşüncələri əldə etmək üçün vacib olan maraqlı tərəflərlə məsləhətləşmə aparılacaq və müzakirə ediləcəkdir. Layihədəki maraqları və təsiri ilə potensial vacib olan maraqlı tərəflər aşağıdakı cədvəldə təqdim olunur.

**Cədvəl 5: Maraqlı Tərəflərin Layihəyə olan Maraq və Təsiri**

| | | **Layihəyə təsir göstərmək və ya təsir etmək ehtimalı və ya qabiliyyəti** | | |
|---|---|---|---|---|
| | | **Yüksək** | **Orta** | **Aşağı** |
| **Layihəyə maraq səviyyəsi** | **Yüksək** | AAYDA | Bazarlar (rəsmi və qeyri-rəsmi ticarətçilər)<br>Restoranlar və mərasim/tədbir salonları<br>Mağazalar və digər müəssisələr<br>Digər xidmətlər | Piyadalar<br>İctimai səfərdə olanlar<br>Şəxsi Nəqliyyatdan istifadə edən insanlar<br>Dayanacaqdan istifadə edən insanlar<br>Layihələndirilən yolların yaxınlığında və ya yol boyunca yaşayan insanlar<br>Layihə boyu kəndlərdə yaşayan insanlar<br>Əlillər<br>Yaşlılar<br>Uşaqlar |
| | **Orta** | Ekoloji qruplar da daxil olmaqla, Vətəndaş Cəmiyyəti Təşkilatları<br>Mətbuat və Media | Polis və yol polisi əməkdaşları | Ümumi ictimaiyyət<br>Turistlər |

# 5 MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI PROQRAMI

Maraqlı Tərəflərin Cəlb Olunması Planı, maraqlı tərəflərin əsas xüsusiyyətləri və maraqlarını, müxtəlif maraqlı tərəflər üçün uyğun olacaq müxtəlif səviyyəli cəlbedilməni/iştirakı və məsləhətləşmələri nəzərə alan Regional Yollar və İnkişaf Layihəsi üzrə Ətraf Mühit və Sosial Çərçivə (ƏMSÇ) sənədinin vacib bir hissəsidir. Bu, layihələrin ətraf mühit və sosial davamlılığını yaxşılaşdırmaq, layihənin qəbul edilməsi ikanını artırmaq, uğurlu layihənin hazırlanması və həyata keçirilməsinə əhəmiyyətli qatqı təmin etmək məqsədilə hər növ maraqlı tərəfləri layihəyə cəlb etmək üçün addımlar atacaqdır. Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) fəaliyyət növləri və onların tezliyi layihənin hazırlanmasının üç əsas mərhələsinə uyğunlaşdırılmışdır: tikinti; tikinti sonrası və istismar mərhələsi.

## 5.1 Planlaşdırılıan Maraqli Tərəflərin Cəlb Olunması Fəaliyyətləri

Aşağıdakı cədvəldə layihə çərçivəsində nəzərdə tutulan maraqlı tərəflərin cəlb olunması/iştirakı fəaliyyətləri təqdim olunur.

**Cədvəl 6: Planlaşdırılıan Maraqli Tərəflərin Cəlb Olunması Fəaliyyətləri**

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| ***1. Müfəssəl Layihələndirmə*** | Layihənin Təsirinə Məruz Qalan Tərəflər: Torpaq alınmasından təsirlənən insanlar;<br>Layihə ərazisində yaşayan insanlar;<br>İmkanları məhdud / Həssas ailələr | Torpaqların erkən qeydiyyatı üçün rəsmi sənədlərin toplanmasına kömək;<br>Kompensasiya dərəcələri və metodologiyası;<br>Layihənin əhatə dairəsi və əsaslandırılması;<br>Layihənin Ətraf Mühit &Sosial Standartları;<br>Köçürülmə və dolanışığın bərpası variantları;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | Xüsusən qadınlar və həssas insanlar üçün ictimai iclaslar, təlimlər/ seminarlar, ayrı-ayrı görüşlər;<br>Kütləvi / Sosial Mediya<br>Ünsiyyət/əlaqə - telefon zəngləri<br>Yazılı məlumatların açıqlanması - Broşuralar, afişalar, bukletlər, veb sayt vasitəsilə<br>Məlumat lövhəsi - layihə ərazisinin başlanğıcında və sonunda;<br>Layihənin Təsirinə Məruz Qalan Tərəfin (LTMQT) şikayətinə baxılması mexanizmi | Bölgələrdə layihənin başlanması ilə bağlı görüşlər;<br>Təsirə məruz qalan bələdiyyələrdə və kəndlərdə aylıq iclaslar; Təsirə məruz qalan kəndlərdə LTMQT-lərin tədqiqi;<br>Kütləvi/ sosial media vasitəsilə əlaqə (ehtiyac olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralı / afişalı məlumat masaları (davamlı) | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, torpaqların alınması şöbəsi; İcmalarla Əlaqələndirmə üzrə Məmuru); |

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| *1. Müfəssəl Layihələndirmə* | Digər Maraqlı Tərəflər (xarici)<br>Milli Qeydiyyat Agentliyi;<br>Rayon (kənd nümayəndələri daxil olmaqla) | Torpaq alma prosesi;<br>Torpaq sahələrinin qeydiyyatı;<br>Köçürülmə və dolanışığın bərpası variantları;<br>Layihənin əhatə dairəsi, əsaslandırılması və DB-nın ƏMSS;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | Üz-üzə görüşlər;<br>LTMQT-lər ilə birlikdə ictimai / icma iclasları | Aylıq (ehtiyac olduqda) | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, KS məsləhətçisi; köçürülmə üzrə mütəxəssis |
| *1. Müfəssəl Layihələndirmə* | Digər Maraqlı Tərəflər (xarici)<br>Mətbuat və media;<br>QHT-lər;<br>Biznes və iş təşkilatları;<br>İşçi təşkilatları;<br>Akademik təşkilatlar;<br>Milli Hökumət Nazirlikləri;<br>Yerli idarəetmə şöbələri;<br>Ümumi ictimaiyyət, turistlər, iş axtaranlar | Torpaq alma prosesi;<br>Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Prosesi;<br>Şikayətlərə baxılma mexanizmi prosesi<br>Layihənin əhatə dairəsi, əsaslandırılması və DB-nın ƏMSS; | İctimai dinləmələr / iclaslar, təlimlər / seminarlar;<br>Media / sosial media əlaqələri<br>Yazılı məlumatların açıqlanması - ƏMTQ, broşuralar, afişalar, bukletlər, ictimaiyyətlə əlaqə dəsti, AAYDA-nın veb saytı vasitəsilə;<br>Məlumat lövhəsi - layihə ərazisinin başlanğıcında və sonunda;<br>Şikayətlərə baxılma mexanizmi;<br>Media, yerli nümayəndələr üçün layihə turları | Layihənin başlanması ilə bağlı görüşlər;<br>Təsirə məruz qalan bələdiyyələrdə və kəndlərdə aylıq iclaslar;<br>Kütləvi / sosial media vasitəsilə əlaqə (ehtiyac olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralı / afişalı məlumat masaları (davamlı) | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, |

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| *1. Müfəssəl Layihələndirmə* | Digər Maraqlı Tərəflər (xarici)<br>İcazə / təsdiq tələb edən digər dövlət idarələri;<br>Layihədən və ya onun yaxınlığından asılı olan və ya onların maliyyəçilərinə güvənən layihəni inkişaf etdirən digər qurumlar | Layihə haqqında məlumatlar - əhatə dairəsi və əsaslandırılması və DB-nın ƏMSS;<br>Koordinasiya fəaliyyətləri;<br>Torpaq alma prosesi;<br>Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Prosesi;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | Üz-üzə görüşlər və Fokus Qrup Müzakirələri (FQM/FGD);<br>İctimai / icma iclaslarına dəvətlər | Ehtiyac olduqda | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, |
| *1. Müfəssəl Layihələndirmə* | Digər Maraqlı Tərəflər (daxili)<br>Digər Heyət;<br>Tikintiyə Texniki Nəzarət üzrə Məsləhətçi;<br>Podratçı, subpodratçılar, xidmət təminatçıları, təchizatçılar və işçiləri | Layihə haqqında məlumatlar - əhatə dairəsi və əsaslandırılması və DB-nın ƏMSS; ƏMSTQ üzrə təlim və digər alt idarəetmə planları;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | Üz-üzə görüşlər və Fokus Qrup Müzakirələri (FQM/FGD);<br>Təlimlər / seminarlar;<br>İctimai / icma iclaslarına dəvətlər | Ehtiyac olduqda | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, |

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| *2. Tikinti (səfərbərlik, itikinti, demobilizasiya)* | Layihənin Təsirinə Məruz Qalan Tərəflər - Torpaq alınmasından təsirlənən insanlar;<br>Layihə ərazisində yaşayan insanlar;<br>İmkanları məhdud / Həssas ailələr<br>Yeni körpünün inşa ediləcəyi yaşayış məntəqələri və regional hakimiyyət dairələri | Torpaq alma prosesi (torpaq qeydiyyatı; kompensasiya dərəcələri və metodologiyası; dolanışığın bərpası)<br>Şikayətlərə baxılma mexanizmi prosesi;<br>Sağlamlıq və təhlükəsizliyə təsirlər (tikinti ilə əlaqəli təhlükəsizlik tədbirləri);<br>İş imkanları;<br>Ətraf Mühit/Ekoloji məsələlər;<br>Maarifləndirmə<br>Partlayış işləri (risklər, vaxt, alınacaq tədbirlər və s.) | Xüsusilə qadınlar və həssas qruplar üçün ictimai iclaslar, təlimlər / seminarlar, ayrı-ayrılıqda görüşlər;<br>LTMQT-lərə fərdi yanaşma<br>Kütləvi / Sosial Media Ünsiyyət Platforması (məsələn, Facebook, WhatsApp və s.);<br>Yazılı məlumatların açıqlanması - broşuralar, afişalar, bukletlər, veb sayt vasitəsilə ;<br>Məlumat lövhəsi - layihə ərazisinin başlanğıcında və sonunda;<br>Şikayətlərə baxılma mexanizmi<br>Vətəndaş/ LTMQT araşdırması - Köçürmə və/ və ya tikinti başa çatdıqdan sonra<br>Təhlükəli işlər barədə cəmiyyəti və geniş ictimaiyyəti məlumatlandırmaq / bildiriş | Təsirə məruz qalan bütün bələdiyyələrdə və tikintisi davam edən kəndlərdə aylıq / rüblük iclaslar;<br>Kütləvi / sosial media vasitəsilə əlaqə (ehtiyac olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralı / afişalı məlumat masaları (davamlı)<br>Təhlükəli işlər barətə məlumatların icma rəhbərləri ilə paylaşılması | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, Yol Layihəsi üzrə Məsləhətçi;<br>Podratçı/subpodratçı;<br>QHT / treynerlər;<br>Bələdiyyə şikayətləri<br>Komitənin podratçısı |

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| ***2. Tikinti (səfərbərlik, itikinti, demobilizasiya)*** | Digər Maraqlı Tərəflər (xarici)<br>Milli Qeydiyyat Agentliyi;<br>Rayon (kənd nümayəndələri daxil olmaqla) | Torpaq alma prosesi;<br>Torpaq sahələrinin qeydiyyatı;<br>Köçürülmə və dolanışığın bərpası variantları;<br>Layihənin əhatə dairəsi, əsaslandırılması və DB-nın ƏMSS;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | Üz-üzə görüşlər və Fokus Qrup Müzakirələri (FQM);<br>LTMQT-lər ilə birlikdə ictimai / icma iclasları<br>Telefon məsləhətləşmələri | Həftəlik (ehtiyac olduqda) | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, və aidiyyəti olduqda torpaq alınması şöbəsi;<br>Yol Layihəsi üzrə Məsləhətçi;<br>Podratçı/ subpodratçı; |
| ***2. Tikinti (səfərbərlik, itikinti, demobilizasiya)*** | Digər Maraqlı Tərəflər (xarici)<br>Mətbuat və media;<br>QHT-lər;<br>Biznes və iş təşkilatları;<br>İşçi təşkilatları;<br>Akademik təşkilatlar;<br>Milli Hökumət Nazirlikləri;<br>Yerli idarəetmə şöbələri;<br>Ümumi ictimaiyyət, turistlər, iş axtaranlar | Layihə haqqında məlumatlar - əhatə dairəsi və əsaslandırılması və DB-nın ƏMSS;<br>Koordinasiya fəaliyyətləri;<br>Torpaq alma prosesi (əgər varsa);<br>Sağlamlıq və təhlükəsizliyə təsirlər;<br>İş imkanları;<br>Ətraf Mühit/Ekoloji məsələlər;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | İctimai iclaslar, təlimlər / seminarlar;<br>Yazılı məlumatların açıqlanması - broşuralar, afişalar, bukletlər, ictimaiyyətlə əlaqə seti/dəsti, veb sayt vasitəsilə;<br>Məlumat lövhəsi - layihə ərazisinin başlanğıcında və sonunda;<br>Şikayətlərə baxılma mexanizmi<br>Media, yerli nümayəndələr üçün layihə turları | Layihənin başlanması ilə bağlı görüşlər;<br>Təsirə məruz qalan bələdiyyələrdə və kəndlərdə aylıq iclaslar;<br>Kütləvi / sosial media vasitəsilə əlaqə (ehtiyac olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralı / afişalı məlumat masaları (davamlı) | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti, |

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| *2. Tikinti (səfərbərlik, itikinti, demobilizasiya)* | Digər Maraqlı Tərəflər (daxili)<br>Digər Heyət;<br>Tikintiyə Texniki Nəzarət üzrə Məsləhətçi;<br>Podratçı, subpodratçılar, xidmət təminatçıları, təchizatçılar və işçiləri | Layihə haqqında məlumatlar - əhatə dairəsi və əsaslandırılması və DB-nın ƏMSS; ƏMSTQ üzrə təlim və digər alt idarəetmə planları;<br>Şikayətlərə baxılma mexanizmi prosesi | Üz-üzə görüşlər və Fokus Qrup Müzakirələri (FQM);<br>Təlimlər / seminarlar;<br>İctimai / icma iclaslarına dəvətlər | Ehtiyac olduqda | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti və torpaq alınması şöbəsi;<br>Yol Layihəsi üzrə Məsləhətçi;<br>Podratçı/ subpodratçı; |
| *3. Tikintidən sonra və istismar mərhələsi (layihənin istismarı və qüsurların aradan qaldırılması müddəti ərzində)* | Layihənin Təsirinə Məruz Qalan Tərəflər - Torpaq alınmasından təsirlənən insanlar;<br>Layihə ərazisində yaşayan insanlar;<br>İmkanları məhdud / Həssas qruplar (məktəb yaşlı uşaqlar, qocalar/yaşlılar, əlillər daxil olmaqla)<br>Yol istifadəçiləri və yol kənarındakı sakinlər | Cəlbedilmə fəaliyyətlərindən məmnunluq;<br>Şikayətlərə baxılma mexanizmi prosesi<br>Fəaliyyət zamanı cəmiyyətin sağlamlıq və təhlükəsizlik tədbirləri;<br>Köçürülmə ilə bağlı kompensasiyasının əldə edilməsi və torpaq köçürməsinin başa çatdırılması (əgər varsa, hələ almamış LTMQT-lər)<br>Yol təhlükəsizliyi tədbirləri barədə məlumat (yol nişanları, işıqforlar, nəqliyyatın məhdudlaşdırılması tədbirləri və s.) | İctimai görüşlər, təlimlər / seminarlar, İmkanları məhdud və Həssas Şəxslərə fərdi yardım<br>Yazılı məlumatların açıqlanması - broşuralar, afişalar, bukletlər, ictimaiyyətlə əlaqə seti/dəsti, rəsmi veb sayt vasitəsilə;<br>Məlumat lövhəsi - layihə ərazisinin başlanğıcında və sonunda;<br>Şikayətlərə baxılma mexanizmi<br>LTMQT-in araşdırması - Köçürmə və / və ya kompensasiya ödənişi<br>Yol təhlükəsizliyi ilə bağlı maarifləndirmə fəaliyyətləri | Təsirə məruz qalan bələdiyyələrdə və kəndlərdə görüşlər (yarımillik);<br>Təsirə məruz qalan kəndlərdə vətəndaşlar / LTMQT-lərin araşdırılması;<br>Kütləvi/ sosial media vasitəsilə əlaqə (ehtiyac olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralı / afişalı məlumat masaları (davamlı)<br>İcma iclasları/toplantıları, məktəblərdə və icmalarda yol təhlükəsizliyi broşuralarının paylanması | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti və aidiyyəti olduqda torpaq alınması şöbəsi;<br>AAYDA-LİQ-in Ətraf Mühit və Sosial Məsələlər üzrə işçiləri, köçürmə üzrə mütəxəssisi tərəfindən rəhbərlik edilir |

| *Layihə mərhələsi* | Hədəf maraqlı tərəflər | Cəlb olunma mövzusu(ları) | İstifadə olunan metod (lar) | Yeri / tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| ***3. Tikintidən sonra və istismar mərhələsi (layihənin istismarı və qüsurların aradan qaldırılması müddəti ərzində)*** | Digər Maraqlı Tərəflər (xarici)<br>Mətbuat və media;<br>QHT-lər;<br>Biznes və iş təşkilatları;<br>İşçi təşkilatları;<br>Milli Hökumət Nazirlikləri;<br>Yerli idarəetmə şöbələri;<br>Ümumi ictimaiyyət, turistlər, iş axtaranlar | Şikayətlərə baxılma mexanizmi prosesi<br>Fəaliyyət zamanı cəmiyyətin sağlamlığı və təhlükəsizliyi tədbirləri; | Məlumatların açıqlanması - Layihənin yekun hesabatları, brifinq materialları, Şikayətlərlə bağlı yekun hesabatlar (çap edilmiş və ya veb səhifə vasitəsilə); | Təsirə məruz qalan bələdiyyələrdə görüşlər (altı aylıq);<br>Kütləvi / sosial media vasitəsilə əlaqə (ehtiyac olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralı / afişalı məlumat masaları (davamlı) | AAYDA-nın (Ətraf Mühit və Sosial [EMSMH] Məsələlər üzrə Heyəti və aidiyyəti olduqda torpaq alınması şöbəsi;<br>AAYDA-LİQ-in Ətraf Mühit və Sosial Məsələlər üzrə işçiləri, köçürmə üzrə mütəxəssisi tərəfindən rəhbərlik edilir |

## 5.2 İstifadə ediləcək Cəlb Olunma Metodları haqqında ətraflı məlumat

*ƏMSS10 B-nin - Layihənin icrası və xarici hesabat zamanı cəlbedilmə (23-27) bəndlərinə* uyğun olaraq, maraqlı tərəflərin cəlb olunması/iştirakı, burada müzakirə olunan bir sıra mümkün metodlar vasitəsilə layihənin bütün icra müddətində olacaqdır.

### 5.2.1 İctimai/ icma görüşləri

Regional Yollar və İnkişaf Layihəsi (RYİL) ilə əlaqəli digər fəaliyyətlərdən əvvəl, müvafiq layihə sənədlərinin və bu Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) açıqlanması zamanı AAYDA, maraqlı tərəf olan qurumları da əhatə edən yerli səviyyədə layihə ilə bağlı brifinq iclası təşkil edəcəkdir. Lazım olduqda, işlər başlandıqda bir dəfə brifinq iclası təşkil edilə bilər və ehtiyac yaranarsa və ya layihədə böyük bir dəyişiklik baş verərsə, başqa bir görüş də təşkil edilə bilər.

Salyan və Biləsuvar rayon İcra Hakimiyyəti orqanları AAYDA-LİQ-in icma idarələri, Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT-lər) və Digər Maraqlı Tərəflərlə (DMT) görüşmələrini asanlaşdırmalıdır. Bu görüşlər məhdudlaşdırılmayacaq, lakin əsasən həssas qruplara üstünlük verilə bilər, geniş ictimaiyyət öz narahatlıqlarını bildirə və şərhlər verə bilərlər. Regional Yollar və İnkişaf Layihəsi (RYİL) və xüsusən də III komponentə olan maraq səviyyəsindən asılı olaraq, qadınlar, gənclər, yaşlı insanlar/qocalar, torpaq sahəsi olmayan fermerlər kimi potensial həssas qruplar da daxil olmaqla, daha çox diqqət mərkəzində olan bir müzakirə üçün əsas sahələrdəki fermerlər, sahibkarlar, maraqlı tərəflər və digərləri üçün ayrıca görüş keçiriləcək. Bu görüşlər yarım ildən bir keçirilə bilər.

Mövcud Covid-19 pandemiyası ilə əlaqədar olaraq hökumət əhaliyə virusa yoluxmamaq üçün xüsusi diqqət göstərməyi və bütün lazımi profilaktik tədbirlərdən xəbərdar olmağı tövsiyə etdi. Bu tədbirlər, sosial məsafədən, izdihamlı və sıx yerlərdən uzaq durmaq, qoruyucu paltar geyinmək (məsələn, maskalar və üz qalxanları və s.), əllərin tez-tez yuyulması və ya dezinfeksiya edilməsi, müşahidə olunan simptomlar halında təcrid etmə və ya özünə karantinin qoyulması, testdən keçmək və/ və ya sağlamlığın bərpa edilməsi üçün daha yaxşı tibbi yardımın təmin edilməsindən ibarətdir. Maraqlı Tərəflərin Cəlb Olunması Fəaliyyəti məqsədi ilə görüşlərin təhlükəsizliyi üçün kifayət qədər sosial məsafə, qoruyucu geyim və dezinfeksiyaedici maddələrin istifadəsi təmin edilərək düzgün şəkildə planlaşdırılmalı; iştirak edənlər üçün tədbir zamanı və tədbir sonrasında risklə bağlı müvafiq məlumatlar və tez-tez özünü dezinfeksiya etmələri barədə tövsiyələr/ xatırlatmalar verilməlidir. Layihə işçiləri və iştirak edən maraqlı tərəflər üçün COVID-19-a qarşı əlavə və daha ətraflı təlimatlar bu Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCOP) Əlavəsində təqdim edilmişdir.

### 5.2.2 Ünsiyyət/əlaqə materialları

Regional Yollar və İnkişaf Layihəsi (RYİL) ilə bağlı məlumatlar və yeniliklər müxtəlif vasitələrlə - broşura, buklet, afişa və s. ibarət çap materialları vasitəsilə ictimaiyyətə açıqlanacaqdır. Ünsiyyət/əlaqə materialları AAYDA-LİQ tərəfindən hazırlanacaq və Salyan və Biləsuvardakı İcra Hakimiyyətinin ofisində mövcud olacaqdır. "İctimaiyyətlə Əlaqələr toplusu" xüsusi olaraq hazırlanacaq, həm çap, həm də onlayn formada təqdim ediləcəkdir. AAYDA-LİQ ayrıca veb səhifə (http://www.aayda.gov.az/az) mütəmadi olaraq (ən azı rübdə bir) əsas layihə yenilikləri və layihənin icrası barədə hesabatları həm Azərbaycan, həm də İngilis dilində yeniləyəcəkdir. Veb səhifə layihə ilə bağlı şikayət mexanizminə dair məlumat vermək üçün də istifadə edə bilər.

### 5.2.3 Kütləvi/ sosial media əlaqəsi

Regional Yollar və İnkişaf Layihəsi (RYİL) üzrə layihənin icrası zamanı təyin olunmuş mütəxəssis (AAYDA-LİQ işçilərindən), Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT-lər), icma liderləri də daxil olmaqla maraqlı tərəflərlə sıx ünsiyyət qurmaq məsuliyyəti daşıyacaqdır. Mütəxəssisə, əsas Fokal Məntəqə üzrə Koordinator (FMK) olaraq, ayrıca Regional Yollar və İnkişaf Layihəsi (RYİL) üzrə veb səhifədə, sosial media kanallarında (Facebook və s.) müvafiq məlumatların yerləşdirilməsi

tapşırılacaqdır. Bundan əlavə, zərurət yarandıqda, layihənin təsvirini, qarşıdakı ictimai tədbirlərin əvvəlcədən elan edilməsini və ya Layihə üzrə xüsusi fəaliyyətlərin başlanmasını əks etdirən video materialların (video paylaşma platforması üçün, məsələn, YouTube) hazırlanması və ya sənədli filmin televiziya/kabel televiziyasında yayımı təşkil edilə bilər.

### 5.2.4 Məlumat masaları

Regional Yollar və İnkişaf Layihəsi (RYİL) ilə bağlı təşəbbüslər zamanı yerli sakinlərə maraqlı tərəflərin cəlb olunması fəaliyyətləri, layihə fəaliyyətləri, Fokal Məntəqə üzrə Koordinatorun (FMK) əlaqə məlumatları və s. barədə məlumat vermək üçün hər rayonda (Salyan və Biləsuvarda) İcra Hakimiyyətlərində "məlumat masaları" təşkil ediləcəkdir. Fokal Məntəqə üzrə Koordinator (FMK) bu məlumat masalarını rayon ofislərində quracaq və burada layihə barədə məlumatları Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) və digər maraqlı tərəflərlə bölüşəcəklər. Bu məlumat masalarında Regional Yollar və İnkişaf Layihəsi (RYİL) ilə bağlı müxtəlif sosial və ekoloji mövzulara dair broşuralar və bukletlər olacaqdır.

### 5.2.5 Şikayətlərin həlli mexanizminin tətbiqi

Dünya Bankının Ətraf Mühit və Sosial Standartlar-10 (ƏMSS10) sənədinə uyğun olaraq, Regional Yollar və İnkişaf Layihəsi üzrə şikayət məsələlərinə baxılması üçün layihəyə aid bir şikayət mexanizmi yaradılacaqdır. Yerli sakinlərin şikayətlərinin həlli yolları və şikayət prosedurları ilə tanış olmalarına kömək etmək məqsədilə Regional Yollar və İnkişaf Layihəsi üçün xüsusi olaraq Şikayətlərin Həlli Mexanizminə (ŞHM) dair broşura və ya bukletlər hazırlanacaqdır. Hər bir İcra Hakimiyyəti ofisində kilidli təklif/şikayət qutuları quraşdırılacaq və AAYDA/LİQ şikayətlərin baxılmağa təqdim edilməsi, şikayətçilərlə ünsiyyət/əlaqə qurmaq da daxil olmaqla, onların həllini izləmək üçün şikayət qeydlərini aparacaqdır. Bundan əlavə, insanların AAYDA/LİQ-in veb saytı, e-poçtları, Facebook hesabı və müvafiq ofislərin mobil telefonları vasitəsilə layihə ilə bağlı şikayətlərə daxil olması üçün LİQ tərəfindən digər kanallar yaradılacaqdır. Bu yollar/kanallar haqqında məlumatlar geniş şəkildə və alternativ olaraq kilidlənmiş təklif/ şikayət qutularında göstəriləcəkdir.

Şikayətlərə aşağıdakı şəkildə baxılacaqdır:

(i) Podratçının və Tikintiyə Nəzarət üzrə Məsləhətçinin (TNM) şikayətləri ilkin olaraq qeyd etmək üçün təhlükəsizlik işçiləri
(ii) Şikayətlərlə bağlı AAYDA/LİQ-in Qaynar Xəttinin əlaqə məlumatlarının verilməsi
(iii) Şikayətlər jurnalında bütün şikayətlərin qeydləri olacaq və yenilənəcəkdir
(iv) Yarım illik və ya rüblük hesabatda xülasənin verilməsi.

### 5.2.6 Bacarıqların artırılması üzrə təlimlər və seminarlar

SAAAR/LİQ və mümkün müvafiq dövlət və ya qeyri-hökumət xidmət təminatçıları üçün müxtəlif mövzularda və məsələlərdə bacarıqların artırılması üzrə təlimlər və seminarlar təşkil edilə bilər. Əhatə olunan məsələlər işə daxilolma/xaric edilməyə həssaslıq, əmək məsələləri, gender və s. ibarət olacaq.

Komponent 3-dən faydalananlar üçün bəzi bacarıqların artırılması təlimləri təşkil oluna bilər ki, bu da Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCOP) üzrə fəaliyyətlərin bir hissəsi kimi hesab olunacaq. Layihə tərəfindən təqdim ediləcək kiçik infrastruktur və xidmətlərdən istifadəni yaxşılaşdırmaq üçün proqram çərçivəsində həyata keçirtmək istədikləri fəaliyyət istiqamətində Komponent 3 iştirakçılarına texniki bacarıq təhsili kursları hazırlanıb təklif edilə bilər. Digər əlavə mövzular Regional Yollar və İnkişaf Layihəsinin həyata keçirilməsi zamanı müəyyən edilə bilər.

## 5.3 Təklif olunan strategiya/ həssas qrupların baxışlarını daxil etmək və onların iştirakını təşviq etmək üçün fərqli tədbirlər

İmkanları məhdud və həssas qrupların əlavə çətinliklərini nəzərə alaraq, ƏMSS10-un 16-cı bəndi, "Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) İmkanları məhdud və ya həssas insanlara həsr

olunmuş yanaşma kimi təsbit edilənlərin effektiv iştirakına imkan verən fərqli tədbirləri əhatə edəcəyini və bu cür fərqli təsirə məruz qalmış qruplarla əlaqə qurmaq məqsədilə onların ehtiyac duyduqları məlumatları əldə edə bilmələri üçün onlara təsir göstərə biləcək məsələlərə daha yüksək səviyyədə ehtiyac duyulacağını ifadə edir."

Bu məqsədlə, İmkanları məhdud və həssas qrupların məlumat əldə etmək, rəy bildirmək və ya şikayət vermələri üçün bərabər imkanların təmin edilməsi məqsədilə layihə üzrə xüsusi tədbirlər görüləcəkdir. Layihə işçiləri, xüsusilə AAYDA/LİQ-də və ya Məsləhətçi tərəfdə mühafizə/təhlükəsizlik məsləhətçiləri kimi işləyənlər bu qruplara müraciət etməyin yollarını tapacaq və layihənin təsirləri barədə lazımi məlumatlandırma brifinqlərini təqdim edəcəklər. Bu məqsədlə Regional Yollar və İnkişaf Layihəsi ilə bağlı Fokal Məntəqə üzrə Koordinatora (və ya əlaqələndiricilər və İcma Koordinatoru) İmkanları məhdud və Həssas Qruplarla birbaşa qarşılıqlı əlaqə qurmaq tapşırılır. Bu qrupların ehtiyaclarının düzgün həll olunmasını təmin etmək üçün bir sıra Fokus Qrup Müzakirələri (FQM) aparılacaqdır.

Müvafiq olaraq qrupların vəziyyətlərinə/şərtlərinə uyğunlaşdırılan Fokus Qrup Müzakirələri də (FQM) nəzərdə tutula bilər və məlumatlar onlar tərəfindən başa düşülə bilən dildə verilməlidir. Buna görə, dolayı yolla da təsirə məruz qalacan fiziki qüsurlu insanlara (əlillər və ya hərəkət qabiliyyəti məhdud olan insanlar) uyğun şəkildə fikirlərini və baxışlarını ifadə etmək imkanı verilməlidir. Maraqlı tərəflərin cəlb olunmasında iştirakın təmin edilməsi məqsədilə müxtəlif qruplar üçün əlverişli olan müxtəlif vaxtlarda məsləhətləşmələr təşkil etmək, ehtiyac olduqda nəqliyyatla təmin etmək və məcburi köçkün icmaları kimi yerlərindən təcrid olunmuş icmalara müraciət etmək kimi məqsədyönlü tədbirlərdən istifadə ediləcəkdir.

### 5.4 Məlumatların açıqlanması

AAYDA-nın mövcud veb səhifəsi (*http://www.aayda.gov.az/az*) sosial fəaliyyətlər daxil olmaqla, layihə sənədlərini Azərbaycan və İngilis dilində açıqlamaq üçün istifadə olunur.

Yuxarıda göstərilən hissələrdə layihə ilə əlaqəli sadalanan bütün gələcək sosial və ətraf mühitin monitorinqi hesabatları, o cümlədən layihə barədə yeniliklər, sosial və ətraf mühit hesabatlarında və sənədlərində istifadə olunan terminologiyaya aid təlimat və çap edilmiş materiallarda da mövcud olan məlumatlar eyni zamanda AAYDA-nın veb səhifəsində açıqlana bilər. Layihə üzrə Şikayətlərin Həlli Mexanizmi (LŞHM) ilə əlaqədar təfərrüatlar elektron şikayət forması ilə birlikdə veb səhifədə də təqdim ediləcəkdir. Sosial Mühafizə/Təhlükəsizlik üzrə Mütəxəssisin əlaqə məlumatları (bu halda Fokal Məntəqə üzrə Koordinator) və ofis ünvanı barədə məlumatlar veb səhifədə yerləşdiriləcəkdir. Layihə üzrə veb səhifə Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) və digər maraqlı tərəflər üçün yenilənəcəkdir.

## 6 MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI ÜÇÜN ROLLAR, MƏSULİYYƏTLƏR VƏ RESURSLAR

### 6.1 İcra qaydaları/proseduru

Layihə AAYDA tərəfindən həyata keçiriləcəkdir. Artıq mövcud olan/yaradılmış Layihə İdarəetmə Qrupu (LİQ) ətraf mühit və sosial idarəetmə və potensial ekoloji və sosial risklərin aradan qaldırılması da daxil olmaqla layihənin gündəlik idarəedilməsinə məsuliyyət daşıyacaqdır. LİQ maraqlı tərəflərin cəlb olunmasına da məsul olacaqdır. Layihə üzrə fəaliyyətə başlanıldıqdan sonra Layihə nəticəsi çərçivəsinin mütəmadi izlənməsini və Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) idarəedilməsi də daxil olmaqla DB-nın ƏMSS-a uyğunluğunu təmin etmək məqsədilə Monitorinq və Qiymətləndirmə üzrə (MQ) mütəxəssis və təhlükəsizlik üzrə mütəxəssislər də (sosial məsələlər üzrə mütəxəssis də daxil olmaqla) LİQ-ə qoşulacaqlar.

### 6.2 Vaxt müddəti

Regional Yollar və İnkişaf Layihəsi üzrə Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCOP), layihədəki hər hansı bir dəyişikliyi özündə birləşdirmək və əks etdirmək üçün layihənin icra müddətində vaxtaşırı

yenilənməli və dəqiqləşdirilməli olan “canlı” bir sənəd hesab ediləcəkdir. Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) fokusu və əhatə dairəsindəki bütün dəyişikliklər AAYDA/LİQ tərəfindən maraqlı tərəflərə bildiriləcəkdir.

Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCOP) tətbiq edilərkən layihə dövrünün nəzərə alınmalı olan ən vacib mərhələləri:

- **Layihələndirmə/ Plan:** Layihənin sistemlərinin və komponentlərinin texniki şərtlərdə, habelə Dünya Bankının Ətraf Mühit və Sosial Standartlarında nəzərdə tutulmuş/ razılaşdırılmış tələblərə uyğun olaraq tərtib olunmasını, təmin edilməsini və saxlanılmasını təmin etmək prosesi;
- **Icra etməə:** proses və fəaliyyətlər Dünya Bankının Ətraf Mühit və Sosial Standartlarına uyğun olaraq bütün tələblər nəzərə alınmaqla həyata keçirilir.

### 6.3 Rollar və məsuliyyətlər

Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) icrası üçün RYİL/MTCOP üzrə qrup, təhlükəsizlik meneceri olmaqla AAYDA/LİQ-in sosial təhlükəsizlik üzrə mütəxəssisindən ibarət olacaq və Texniki Nəzarət üzrə Məsləhətçinin (TNM) işçiləri tərəfindən fəal şəkildə dəstəklənəcəkdir. Sosial təhlükəsizlik üzrə mütəxəssis maraqlı tərəflərin cəlb olunmasının bütün aspektləri üçün məsuliyyət daşıyacaq və onlara rəhbərlik edəcəkdir. Buna baxmayaraq, Tərəflərin Cəlb Olunması Planında nəzərdə tutulan müxtəlif fəaliyyətləri həyata keçirmək üçün Əlaqələndirmə/Rabitə və İcma Koordinatoru (iki (2) işçi ehtimal edilir) Salyan və Biləsuvar rayonlarındakı digər əsas maraqlı tərəflərlə - digər milli və yerli hökumət idarələri/agentlikləri və Layihənin Təsirinə Məruz Qalan Tərəflərlə (LTMQT) sıx əlaqələndirməlidirlər. Bu iştirakçıların/maraqlı tərəflərin rolları və məsuliyyətləri aşağıdakı Cədvəldə ümumiləşdirilmişdir.

**Cədvəl 7: Maraqlı Tərəflərin Cəlb Olunması Planında (MTCOP/SEP) əsas iştirakçıların/maraqli tərəflərin məsuliyyətləri**

| İştirakçı | Maraqli tərəflərin məsuliyyətləri |
|---|---|
| AAYDA/LİQ<br>Aparıcı: Sosial Məsələlər üzrə Mütəxəssis<br>Yardım etmək/dəstəkləmək (ehtiyac olduqda): Köçürmə üzrə Mütəxəssis(ehtiyac olduqda) | ***Layihə səviyyəsində:***<br>• Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) planlaşdırılması və tətbiqi;<br>• Əsas maraqlı tərəflərin cəlb olunması fəaliyyətləri;<br>• Şikayətlərin idarə edilməsi və həll edilməsi;<br>• Qeydə alınmış şikayətlərin düzgün qeydiyyatı və izlənməsini təmin etmək;<br>• Podratçıların ƏMSÖP və MTCOP fəaliyyətləri üzrə koordinasiyası/ nəzarət;<br>• Sosial fəaliyyətin monitorinqi və hesabatların Azərbaycan Hökumətinə və Dünya Bankına təqdim olunması. |
| (AAYDA/LİQ-in rəhbərliyi altında)<br>Aparıcı: Sosial Təhlükəsizlik üzrə Mütəxəssis<br><br>Yardım etmək/dəstəkləmək (ehtiyac olduqda):<br>Əlaqələndirmə/Rabitə və İcma Koordinatoru(ları) (Sosial Təhlükəsizlik üzrə Mütəxəssisin tapşırıqlarının yerinə yetirilməsi) | • LİQ-ə onların maraqlı tərəflərlə cəlbedilməsi məsələsi ilə bağlı hər hansı bir məlumatın verilməsi;<br>• Şikayətlərin Həlli Mexanizmi (ŞHM) üzrə LİQ-in Fokal Məntəqə Koordinatoruna (Sosial Təhlükəsizlik üzrə Mütəxəssis) bütün şikayətlər barədə hesabat təqdim etmək;<br>• Layihə təsirlərindən qaynaqlanan şikayətləri LİQ ilə sıx əməkdaşlıq edərək, onun rəhbərliyi altında və yerli Şikayətlərin Həlli Komitəsində iştirak etməklə ötürmək və həll etmək;<br>• Sosial Təhlükəsizlik üzrə Mütəxəssisin rəhbərliyi altında - müxtəlif planların ictimaiyyətə açıqlanması və həyata keçirilməsi (məsələn, MTCOP, Əməyin İdarə Edilməsi Planı (ƏİP) və s.);<br>• Layihə Ərazisindəkii İmkanları məhdud və Həssas Qruplarla ünsiyyətin qurulması və əlaqələndirmə; |

| İştirakçı | Maraqli tərəflərin məsuliyyətləri |
|---|---|
| | • Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) tərəfindən qaldırılan şikayətlər ilə bağlı Rayon İcra Hakimiyyətləri ilə sıx ünsiyyətdə olmaq. |
| Aparıcı: Sosial Təhlükəsizlik üzrə Mütəxəssis<br><br>Yardım etmək/dəstəkləmək (ehtiyac olduqda):<br>İcra Hakimiyyətlərində yerli təyin olunmuş Fokal Məntəqə üzrə Koordinator (FMK/FPP), TTN üzrə Məsləhətçilərinin köməyi ilə təyin ediləcəkdir (Salyan və Biləsuvar: Rayon səviyyəsində) | • Zəruri hallarda, Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) tərəfindən qaldırılan şikayətlərin verilməsinin asanlaşdırılmasına kömək etmək. |
| Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) | • Layihə iclaslarında və rayon/yerli RYİL/ fokal məntəqə üzrə koordinatorlar/Rabitə və İcma Koordinatoru ilə maraqlandığı və ya əlaqəli olduğu Layihə ilə bağlı müzakirələr yolu ilə cəlbedilərək suallar verməyə dəvət olunur;<br>• MTCOP-da müəyyən edilmiş Şikayətlərin Həlli Mexanizmindən istifadə edərək şikayətlərin verilməsi/yerləşdirilməsi;<br>• Layihə üzrə yumşaldıcı tədbirlərin müəyyənləşdirməsinə kömək etmək |
| Layihənin Digər Maraqlı Tərəfləri | • Layihənin hazırlanması ilə bağlı AAYDA/LİQ ilə əlaqə saxlanılması;<br>• Layihənin əhatəli olmasına kömək etmək üçün narahatlıq yaradan məsələlərin qaldırılması. |

## 6.4 Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) həyata keçirilməsi üçün büdcə

Yuxarıda müzakirə olunan maraqlı tərəflərin cəlbedilmə fəaliyyətləri, digər layihə sənədlərinin bir hissəsi ola biləcək müxtəlif sosial məsələləri əhatə edir (məsələn, KSÇS, ƏMSİÇS, ƏMSİP və s.), buna görə də digər planlarda büdcəyə salınmış ola bilərlər. AAYDA/LİQ, RYİL üzrə maraqlı tərəflərin cəlb olunması fəaliyyətlərinin, habelə digər əlaqəli rabitə, məlumatlandırma və məlumatların açıqlanması fəaliyyətlərinin dizaynı/planlaşdırılması və həyata keçirilməsinə məsuliyyət daşıyır. Regional Yollar və İnkişaf Layihəsi üzrə Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) uğurla həyata keçirilməsini təmin etmək məqsıdilə LİQ-in Ətraf Mühit və Sosial məslələlər üzrə heyəti və Layihələndirmə üzrə Məsləhətçi Mühəndisi LİQ-ə kömək edəcəkdir.

Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP/SEP) icrası üçün təxmini büdcə aşağıda göstərilmişdir.

**Cədvəl 8: Maraqlı Tərəflərin Cəlb Olunması Planı – Ehtimal edilən Büdcə (2 il üçün)**

| Maraqlı Tərəflərin Cəlbedilmə Fəaliyyətləri | Sayı | Adam ay/il. | Vahidin qiyməti ABŞ $ | İllərin sayı | Ümumi qiymət ABŞ $ |
|---|---|---|---|---|---|
| Yerli Sosial Məsələlər üzrə Mütəxəssis (aylıq) | 1 | 12 | 1,900 | 2 | 45,600 |
| Yerli Əlaqələndirmə və İcma Koordinatoru | 2 | 2 | 1,500 | 2 | 12,000 |
| İşçilərin yerli səyahət xərcləri (illik xərc) | | | 2,000 | 2 | 4,000 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Rabitə/əlaqə materialları (broşurlar, afişalar, layihə daxil olmaqla ictimaiyyətlə əlaqə seti/dəsti) | 50 | | 10 | 2 | 1,000 |
| İctimai / icma iclasları | 2 | | 400 | 2 | 1,600 |
| Təkliflər / ŞHM qutularının qurulması (hər rayonda) | 3 | | 10 | | 30 |
| RYİL üzrə inarəetmə məlumat sistemi (İMS) / ŞHM üzrə məlumat bazası (onlayn və oflayn bağlantıları olan veb / mobil tətbiq daxil olmaqla) | 1 | | 2,000 | 2 | 4,000 |
| | | | | | |
| **Cəmi** | | | | | **68,230** |
| Nəzərdə tutulmayan (10%) | | | | | 6,823 |
| **Ümumi cəmi** | | | | | **75,053** |

# 7 ŞİKAYƏTLƏRİN HƏLLİ MEXANİZMİ

ƏMSS10 C - Şikayət Mexanizminə uyğun olaraq Borcalanın layihənin təsirinə məruz qalan tərəflərin layihənin ətraf mühit və sosial göstəriciləri ilə bağlı narahatlıq və şikayətlərinə vaxtında cavab verməlidir *(ƏMSS10, bənd 26)*. Bundan əlavə, "Layihə üçün mümkün və uyğun olduğu yerlərdə, şikayət mexanizmi[3], layihəyə xas tənzimləmələrlə lazım olduqda əlavə edilmiş mövcud rəsmi və ya qeyri-rəsmi şikayət mexanizmlərindən istifadə edəcəkdir *(ƏMSS10, bənd 27)*. Əsas fikirlər aşağıdakılardır:

(i) Şikayət mexanizminin, narahatlıq doğuran məsələləri dərhal və effektiv şəkildə, mədəni cəhətdən uyğun və layihənin təsirinə məruz qalan bütün tərəflər üçün asanlıqla əldə edilə bilən, şəffaf bir şəkildə, heç bir xərc ödəmədən və qarşılıqsız həll etməsi gözlənilir. Mexanizm, proses və ya prosedur məsələlərin məhkəmə və ya inzibati vasitələrlə həll edilməsinə mane olmayacaqdır. Borcalan, icmanın cəlb olunması fəaliyyətləri zamanı layihənin təsirinə məruz qalan şəxsləri şikayət prosesi barədə məlumatlandıracaq və alınan bütün şikayətlərə cavabların sənədləşdirilən qeydini ictimaiyət üçün əlçatan edəcək; və

(j) Şikayətlərə baxılması mədəni cəhətdən uyğun bir şəkildə həyata keçiriləcək, təmkinli və obyektiv olmaqla, həssas və layihənin təsirinə məruz qalan tərəflərin ehtiyaclarına və qayğılarına cavab verəcək. Mexanizm, anonim şikayətlərin də qaldırılmasına və həllinə imkan verəcəkdir.

*ƏMSS10-nun, 1 saylı Əlavəsinin, 2-ci bəndi*, Regional Yollar və İnkişaf Layihəsinə daxil edilməsi zəruri olan bəzi ətraflı Şikayətlərin Həlli Mexanizmi (ŞHM) tələblərini aşağıdakı kimi təqdim edir:

(a) Şikayətlərin istifadəçilər tərəfindən şəxsən, telefon, mətn mesajı, poçt, e-poçt və ya veb səhifə vasitəsilə göndərilməsini əhatə edən müxtəlif yollarla göndərilməsi;
(b) Şikayətlərin yazılı şəkildə qeyd edildiyi və məlumat bazası kimi saxlanıldığı bir jurnal;
(c) İstifadəçilərin şikayətlərinin təsdiqini, cavabını və həllini nə qədər gözləyə biləcəyini göstərən açıq şəkildə elan olunan prosedurlar;
(d) Şikayət proseduru, idarəetmə strukturu və qərar qəbul edənlərin şəffaflığı; və
(e) Şikayətlərin həllinə nail olunmadığı təqdirdə təmin edilməmiş şikayətlərin yönləndirildiyi bir apellyasiya prosesi (yerli/milli məhkəmə sistemi də daxil olmaqla)

## 7.1 RYİL üzrə ŞHM-nin yaradılması

Maraqlı Tərəflərin Cəlb Olunması prosesindəki Şikayətlərin Həlli Mexanizmi (ŞHM) Regional Yollar və İnkişafl Layihəsinin Köçürmə Siyasəti üzrə Çərçivə Sənədində (KSÇS) təqdim olunanlara bənzəyir və bəzi hallarda hər iki ŞHM məsələləri həll etmək üçün paralel işləyə bilər. İşçilər və mütəxəssislər praktik olaraq və hətta uyğunluğa görə Şikayətlərin Həlli Mexanizmlərindən (ŞHM) birinə və ya hər ikisinə təyin edilə bilər. ƏMSS10-un tələblərinə əsasən Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCOP) çərçivəsində şikayətlərin həll edilməsi üçün atılacaq addımlar:

[3] DB-nın ƏMSÇ (2018) 100, qeyd 9

**1-ci addım Şikayətlərin Həlli üzrə Komissiya (ŞHK):** Şikayətlərin Həlli üzrə Komissiya (ŞHK), yerli səviyyədə AAYDA/LİQ tərəfindən yaradılacaq və ən azı aşağıdakı nümayəndələrdən ibarət olacaqdır: (i) tanınmış yerli rəhbərlər (məsələn, yerli icra hakimiyyətinin rəsmiləri) vasitəsilə adamlar; (ii) Podratçı; (iii) AAYDA/LİQ-i təmsil edən Tikintiyə Nəzarət üzrə Məsləhətçi (TNM). Şikayətlərin Həlli üzrə Komissiya (ŞHK), zərər çəkmiş tərəflər arasında vasitəçi rolunu oynayacaq və mübahisələrin qarşılıqlı razılıq yolu ilə həll edilməsinə çalışacaqdır. Şikayətlərin qəbulu kanalı, şifahi olaraq (şəxsən və ya telefon), kağız üzərində (sənədli və ya ənənəvi poçt) və ya elektron şəkildə (elektron poçt, veb səhifə, WhatsApp və s.) daxil olan şikayətləri Tikintiyə Nəzarət üzrə Məsləhətçinin (TNM) belə şikayətlərə qeyd edə bilən işçilərinə həvalə edilə bilər. Məsələnin həlli üçün atılan addımlar şikayətin yoxlanılmasına, nəzərdən keçirilməsinə, qiymətləndirilməsinə, Şikayətlərin Həlli üzrə Komissiya tərəfindən daxili müzakirələrə, şikayətçi ilə müzakirələrə, güzəştə getməyə və qərar verilməsinə səbəb olacaqdır. Şikayətlərin qəbul kanallarının əlaqə məlumatları yerli əhaliyə bildirilməlidir. Bu addımın müddəti 7-10 gün olacaq.

**2-ci addım AAYDA/LİQ:** Şikayətlərin Həlli üzrə Komissiyanın (ŞHK) tövsiyələri AAYDA/LİQ-ə göndərilir. AAYDA/LİQ, Layihənin Təsirinə Məruz Qalan Şəxslərin (LTMQT) şikayətlərini həll etməyə məsuliyyət daşıyır və zərurət yaranarsa, bu şikayətləri tədbir görmək üçün müvafiq qurumlara/ idarələrə göndərəcəkdir. Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) telefon, e-poçt, birbaşa görüşlər və məktublar vasitəsilə AAYDA/LİQ ilə əlaqə qura biləcəklər. AAYDA/LİQ-in (Əlaqə Məntəqəsi) əlaqə məlumatları Layihənin Təsirinə Məruz Qalan Tərəflərə (LTMQT) paylanacaq və Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) həyata keçirilməsinə başlamazdan əvvəl icmalardakı əsas yerlərdə yerləşdiriləcəkdir. Əlavə olaraq, Layihənin Təsirinə Məruz Qalan Tərəflə (LTMQT) həll edilməmiş problemlər olduqda, AAYDA/LİQ bir seçim olaraq “vasitəçiliyə” müraciət edə bilər *(ƏMSS10, Əlavə 1, bənd 3)*. Bu addımın müddəti 15 gün olacaq.

**3-cü addım (Məhkəmə):** Məhkəmə son müraciət yeri olacaq. Prinsip etibarı ilə, Layihənin Təsirinə Məruz Qalan Tərəflər, layihə icraçılarının fəaliyyəti və ya hərəkətsizliyi ilə razılaşmadıqları zaman müvafiq məhkəməyə **müraciət** edə bilərlər. Bununla birlikdə, şikayətlərin məhkəmə səviyyəsinə yüksəlməməsi üçün layihəyə aid Şikayətlərin Həlli Mexanizmi (ŞHM) tam və şəffaf şəkildə həyata keçiriləcəkdir. Layihənin Təsirinə Məruz Qalan Şəxslər (LTMQT) Şikayətlərin Həlli Mexanizminin (ŞHM) son qərarı ilə razılaşmadıqları təqdirdə məhkəməyə müraciət edə bilərlər. Bu addımın müddəti 30 gün olacaq.

*ƏMSS10-un 1 saylı Əlavəsinin 2-ci bəndinə* uyğun olaraq, Şikayətlərin Həlli Mexanizmi (ŞHM), layihənin təsirinə məruz qalan tərəflər, icma üzvləri, vətəndaş cəmiyyəti, media və digər maraqlı tərəflər daxil olmaqla, layihənin bütün maraqlı tərəfləri üçün əlçatan olacaqdır. Maraqlı Tərəflər Şikayətlərin Həlli Mexanizmindən (ŞHM) layihənin ümumi idarə edilməsi və həyata keçirilməsi ilə əlaqədar şikayətlər, rəylər, sorğular, təkliflər və ya hətta təriflər təqdim etmək üçün istifadə edə bilərlər. Şikayətlərin Həlli Mexanizmi (ŞHM) xarici maraqlı tərəflərdən gələn məsələləri/ problemləri və şikayətləri səmərəli, vaxtında və qənaətli şəkildə həll etmək məqsədi daşıyır. İşçilərin şikayətləri üçün ayrıca bir mexanizmdən istifadə ediləcəkdir. AAYDA/LİQ, əvvəlki hissədə göstərilən rol və vəzifələrdən sonra maraqlı tərəflərin Şikayətlərin Həlli Mexanizminin (ŞHM) idarə edilməsinə məsuliyyət daşıyacaqdır.

## 7.2 Ciddi şikayətlərə dair protokollar və prosedurlar

Dünya Bankı tərəfindən maliyyələşdirilən layihə çərçivəsində şikayətlərin bütün mümkün aspektlərini əhatə etmək üçün zəruri hallarda həssas hallar üçün müəyyən protokol və prosedurları tanımaq və hazır saxlamaq lazımdır. Həssas hallar arasında irəli çəkilən Cinsi İstismar və Zorakılıq (CİZ) və Cinsi Təcavüz (CT) halları olacaqdır. Tərifə[4] görə, cinsi istismar “cinsi məqsədlər üçün həssas bir

[4] Cinsi İstismar və Zorakılıqdan Qorunma (CİZQ) / Cinsi Təcavüz (CT) və Amerikadakı İcma Əsaslı Şikayət və İstiqamət Mexanizmləri üçün Regional alət.

vəziyyətdən, fərqli gücdən və ya etibardan sui-istifadə və ya başqa bir şəxsin cinsi istismarından əldə olunan maddi, sosial və ya siyasi qazanc daxil olmaqla, bunlarla məhdudlaşdırılmayan hər hansı bir sui-istifadə və ya cəhd" deməkdir. Cinsi İstismar "İstər zorla, istərsə də qeyri-bərabər və ya məcburi şəraitdə cinsi xarakterli faktiki və ya təhdid edilən fiziki müdaxilədir." Cinsi təcavüz "işçilər arasında baş verir və istənlməyən cinsi təcavüz və ya cinsi xarakterli istənilməyən şifahi və ya fiziki davranışı əhatə edir.

Mühafizəkar bir cəmiyyət kontekstində, sosial normalar bu kateqoriyalara aid şikayətlərin bildirilməməsi üçün bəzi maneələr yarada bilər. İcmanın, layihə işçilərinin və müxtəlif maraqlı tərəflərin qanun pozuntuları barədə məlumat verməkdə və cinayətkarlara qarşı təcili və qətiyyətli tədbirlərin görüləcəyinə əmin olduqları bir mühitin təbliğinə imkan yaratmaq vacibdir.

Şikayət mexanizmləri təhlükəsiz, genderə/cinsiyyətə həssas və kontekstə uyğun olmalıdır, məsələlər müzakirə edilməzdən əvvəl və müzakirə zamanı bitərəfliyi və məxfiliyi qoruyub saxlamalıdır. Şikayətlərin Həlli Mexanizminin (ŞHM) funksiyaları Cinsi İstismar və Zorakılıq (CİZ) və Cinsi Təcavüz (CT) hallarını vaxtında, qərəzsiz, müstəqil və ədalətli araşdırmaların aparılması üçün gücləndiriləcəkdir. AAYDA, araşdırma funksiyasına güvən yaratmaq üçün lazım olduğu təqdirdə layihəyə uyğun kanallar vasitəsilə bu cür işlərə baxma təcrübəsi olan müstəqil üçüncü tərəflərin cəlb olunması da daxil olmaqla bütün tədbirləri görəcək. AAYDA bu cür işlərə baxılması üçün iki işçi təyin edəcək və onlara təlim verəcəkdir.

Ciddi şikayətlərə dair protokol və prosedurlar aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- Qəbul edilmiş bütün şikayətlər qeydiyyata alınacaq və məxfi saxlanılacaqdır. Statistik məqsədlər üçün, hadisələr/məsələlər əlaqəli şəxslərin müəyyən edilməməsi üçün anonimləşdiriləcək və paket halına gətiriləcəkdir.
- Hadisə/iş üzrə bir qərara gəldikdən sonra Şikayət üzrə Məsləhətçi/Müşavir, uyğun olaraq qərarların qüvvəyə minməsini təmin edəcəkdir.
- Cinayət işləri prokurorluğa göndəriləcək.

## 7.3 Şikayət qeydləri

*ƏMSS10-un 1 saylı Əlavəsinin 1 və 2-ci bəndləri*, "Şikayətlərin qeydləri və məlumat bazası"nın saxlanılmasına dair tələbin bir hissəsi olaraq, AAYDA/LİQ, Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) icrası çərçivəsində ən azı aşağıdakı məlumatlardan ibarət olan şikayət jurnalını tərtib edəcəkdir:

- Fərdi istinad nömrəsi;
- Şikayət verən şəxsin adı, sual və ya digər rəylər, ünvan və/ və ya əlaqə məlumatları (şikayət anonim şəkildə verilmədikdə);
- Şikayətin təfərrüatları, rəy və ya sual/ yeri və şikayətinin təfərrüatları;
- Şikayət tarixi;
- Şikayətlə məşğul olmaq üçün təyin edilmiş şəxsin adı (şikayətçiyə təsdiq, araşdırma, qərar təklif etmək və s.);
- Təklif olunan qərarın/qətnamənin bir hissəsi olan düzəldici tədbirlərə icazə verilməsi və həyata keçirilməsindən məsul olan şəxs (lər) daxil olmaqla təklif olunan qərarın təfərrüatları;
- Təklif olunan qərarın/qətnamənin şikayətçiyə bildirildiyi tarix (anonim olmadıqda);
- Şikayətçinin, təklif olunan qətnamə barədə mümkün olduğu təqdirdə yazılı şəkildə məlumatlandırıldığını təsdiqlədiyi tarix;
- Şikayətçinin qətnamədən razı olub-olmamasının və şikayətin bağlanıb-bağlanmayacağının təfərrüatları;
- Qətnamənin tətbiq olunduğu tarix (varsa).

## 7.4 Şikayətlərə dair monitorinq və hesabat

Monitorinq və hesabatların təfərrüatları yuxarıda təsvir edilmişdir. Şikayətlərin Həlli Mexanizminin (ŞHM) gündəlik tətbiqinə və Dünya Bankına hesabat verilməsinə AAYDA/LİQ məsuliyyət

daşıyacaqdır. Şikayətlərə baxılmasına rəhbərliyin nəzarətini təmin etmək üçün, ümumi prosesi izləmək məqsədilə, o cümlədən razılaşdırılmış qətnamələrin həqiqətən yerinə yetirildiyini yoxlamaq üçün LİQ rəhbərliyi tərəfindən rəhbərlik edilən daxili audit yoxlaması aparılacaqdır.

### 7.5 Mərkəzi əlaqə nöqtəsi - LİQ

Maraqlı Tərəflərin Cəlb Olunması Planı ilə bağlı əlaqə nöqtəsi *(AAYDA/LİQ tərəfindən təmin ediləcək və yenilənəcəkdir)*:

| Təsviri | Əlaqə məlumatları |
|---|---|
| Ad | |
| Ünvan | |
| Email | |
| Telefon | |

*ƏMSS10-un 1 saylı Əlavəsinin 1 və 2-ci bəndlərinin* bir hissəsi olaraq, kütləvi reklam prosedurlarına dair tələb, layihə və gələcək maraqlı tərəflərin iştirakı proqramları barədə hər hansı bir məlumat Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) veb səhifəsində və rayon İcra Hakimiyyətinin binasındakı məlumat lövhələrində yerləşdiriləcəkdir. Məlumatlar Bakı şəhərindəki Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) də əldə edilə bilər. Maraqlı Tərəflərin Cəlb Olunması Planının həyata keçirilməsini sənədləşdirən son aylıq Ətraf Mühit və Sosial (E&S) hesabatları layihənin saytında açıqlana bilər.

### 7.6 Dünya Bankının Şikayətlərin Həlli Sistemi

Dünya Bankının dəstəklədiyi layihənin mənfi təsirlərinə məruz qaldıqlarına inanan icmalar və şəxslər, Dünya Bankının Şikayətlərin Həlli Xidmətinin (DBŞHX) mövcud layihə səviyyəsində şikayətlərin həlli mexanizmlərinə şikayətlərini təqdim edə bilərlər. Şikayətlərin Həlli Xidməti, layihə ilə bağlı narahatlıqları həll etmək üçün daxil olan şikayətlərin dərhal nəzərdən keçirilməsini təmin edir. Şikayətlər/narahatlıqlar birbaşa Dünya Bankının diqqətinə çatdırıldıqdan və Bank Rəhbərliyinə cavab vermək üçün fürsət verildikdən sonra istənilən vaxt verilə bilər. Dünya Bankının Şikayətlərin Həlli Xidmətinə (DBŞHX) necə şikayət veriləcəyi barədə məlumat üçün zərər çəkmişlər və ya şikayətləri olan şəxslər qeyd olunan veb səhifəyə müraciət edə bilərlər:

https://projects.worldbank.org/en/projects-operations/products-andservices/grievance-redress-service

Şikayətlərin Dünya Bankının Təftiş Panelinə necə göndəriləcəyi barədə məlumat www.inspectionpanel.org saytından əldə edilə bilər.

## 8 MONİTORİNQ VƏ HESABAT

### 8.1 Layihənin icrası zamanı hesabatların monitorinqi (müvafiq olduqda komponentlər üzrə)

Maraqlı Tərəflərin Cəlb Olunması prosesinin monitorinqi və qiymətləndirilməsi AAYDA-nın müəyyən edilmiş məsələlərə cavab verə bilməsi və onları daha təsirli hala gətirmək üçün cəlb olunma/iştirak tədbirlərinin cədvəlini və xarakterini dəyişdirə bilməsi üçün həyati hesab olunur. AAYDA/LİQ-in Maraqlı Tərəflərin Cəlbedilmə Planı üzrə Monitorinq və Hesabat Mütəxəssisi Təhlükəsizlik üzrə Mütəxəssis olacaqdır. Maraqlı tərəflərin cəlb olunması/iştirakı prosesinin izlənməsi prosesin effektivliyini qiymətləndirməyə imkan verir. Vaxt baxımından iki fərqli, lakin əlaqəli monitorinq fəaliyyəti həyata keçiriləcəkdir:

- **Cəlbedilmə fəaliyyətləri zamanı:** iştirak/cəlbedilmə zamanı düzəlişlərin / təkmilləşdirmələrin aparılmasına imkan vermək üçün qısa müddətli monitorinq; və
- **Maraqlı Tərəflərin Cəlb Olunması fəaliyyətlərinin hamısı tamamlandıqdan sonra:** Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCOP) tətbiqinin effektivliyini qiymətləndirmək üçün iştirakın sonunda nəticələrin nəzərdən keçirilməsi.

Şikayətlərin Həlli Mexanizminin fəaliyyət göstərməsi də daxil olmaqla Maraqlı Tərəflərin Cəlb Olunması Planını üzrə fəaliyyətlərin vəziyyəti barədə məlumatlar layihənin bütün tərəqqi hesabatlarına daxil ediləcəkdir. Hər bir maraqlı tərəfin cəlb olunması mərhələsi üçün bir sıra əsas icra/performans göstəriciləri AAYDA/LİQ-in Ətraf Mühit və Sosial məsələlər üzrə işçiləri tərəfindən hazırlanacaqdır. Göstəricilər və göstəricilərə qarşı fəaliyyət cəlb olunma/iştirak üzrə tapşırıqların/məqsədlərin uğurla başa çatdırıldığını göstərəcəkdir.

Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) 3 (üç) fəaliyyət sahəsi/istiqaməti olacağından, Maraqlı Tərəflərin Cəlb Olunmasına dair monitorinq hesabatları müvafiq layihə komponentlərinin iş proqramına uyğun olaraq aşağıdakı kimi olacaqdır:

- **İlk istiqamət** (İkinci dərəcəli Yol Dəhlizinin Yenidənqurulması): Bu fəaliyyətlərin monitorinq hesabatları dizayn mərhələsində başlayacaq, nisbətən uzun bir tikinti müddəti ərzində bir neçə dəfə (ehtiyac olduqda) hazırlanacaq və daha sonra isə əməliyyatlar zamanı bir neçə dəfə hazırlanacaqdır. Maraqlı tərəflər irəliləyişlə bağlı düzgün qiymətləndirilməli, beləliklə risklərdən, təsirlərdən qorunmaq və təsirlərin azaldılması tədbirlərinin effektiv olmasını təmin etmək üçün kifayət qədər iştirak və cəlb olunmalara icazə verilməlidir.
- **İkinci istiqamət** (Kiçik İnfrastruktur və Xidmətlər): Bu cür planlaşdırılmış və ya nəzərdə tutulmuş kiçik infrastrukturun təmin edilməsi Layihənin Təsirinə Məruz Qalan Tərəflər (LTMQT) və ya Digər Maraqlı Tərəflər (DMT) üçün daha az pozulmaya, risk və təsirlərə səbəb ola biləcəyi üçün, hesabat məsələləri, icra edilmiş cavab və ya qərarları və son nəticəni təqdim etmək üçün kifayət edə bilər.
- **Üçüncü istiqamət** (Maliyyənin davamlılığı və əməliyyat səmərəliliyi): Bu fəaliyyət üçün monitorinq hesabatı ilkin mərhələdə və digər hesabat isə layihənin tamamlanması ərəfəsində hazırlana bilər.

## 8.2 Maraqlı tərəflərin Monitorinq Fəaliyyətinə cəlb olunması

Regional Yollar və İnkişaf Layihəsi (RYİL), maraqlı tərəflərə, xüsusən Layihənin Təsirinə Məruz Qalan Tərəflərə, Layihə üzrə fəaliyyətin müəyyən məqamlarını izləmək və rəy bildirmək üçün bir neçə imkan təqdim edir. Təsirə məruz qalan beş rayonun hər birindəki Şikayətlərin Həlli Komissiyası Layihənin Təsirinə Məruz Qalan Tərəflərin şikayətlərini və digər rəylərini təqdim etmələrinə imkan yaradacaqdır. Vətəndaş/Layihənin Təsirinə Məruz Qalan Tərəfin (LTMQT) araşdırılması, layihənin başlanğıcında və sonunda da Layihənin Təsirinə Məruz Qalan Tərəflərin (LTMQT) layihənin gedişatı/icrası ilə bağlı rəylərini bildirməsinə imkan verəcəkdir. Bundan əlavə, AAYDA/LİQ işçiləri, xüsusən Təhlükəsizlik üzrə Mütəxəssisi ilə tez-tez və müntəzəm icma görüşmələri və qarşılıqlı əlaqələr, Layihənin Təsirinə Məruz Qalan Tərəflərin (LTMQT) və digər yerli maraqlı tərəflərin dinlənilməsinə və cəlb olunmasına/iştirakına imkan verəcəkdir.

## 8.3 Maraqlı Qruplara Hesabatın verilməsi

Maraqlı qruplara hesabat vermək və maraqlı tərəflərin prosesini qiymətləndirmək, AAYDA/LİQ-in müəyyən edilmiş məsələlərə cavab verə bilməsi və onları daha təsirli hala gətirməsi üçün cəlb olunma fəaliyyətlərinin cədvəlini və xarakterini dəyişdirməsini təmin etmək üçün vacib hesab olunur. Bütün məsələlərin bütün səviyyələrdə peşəkar şəkildə həll edilməsi arzu edilir. Aydın və anlaşılan bir şəkildə nəzərdən keçirmə üçün hər şey məlumat və təqdimat şəklində istifadə olunmalıdır. Bütün maraqlı tərəflər bütün problemlərin bütün mərhələləri və həlli barədə məlumatlandırılmalıdırlar.

Regional Yollar və İnkişaf Layihəsinin (RYİL) Təhlükəsizlik üzrə Mütəxəssisi, Layihələndirmə üzrə Məsləhətçi və Tikintiyə Texniki Nəzarət üzrə Məsləhətçinin (müvafiq olaraq) köməyi ilə, ilk növbədə layihənin təsirinə məruz qalan ərazilərdə və/ və ya kəndlərdə ictimai görüşlər yolu ilə Layihənin Təsirinə Məruz Qalan Şəxslərə (LTMQT) və digər maraqlı tərəf qruplarına hesabat verəcəkdir. İclasların protokolları sonrakı ictimai görüşlər zamanı paylaşılacaqdır. Şikayətlərin Həlli Mexanizmi (ŞHM) vasitəsilə alınan rəylərə mümkün qədər yazılı və şifahi cavab veriləcəkdir. SMS və telefon zəngləri, telefon nömrələri olan maraqlı şəxslərə cavab vermək üçün istifadə ediləcəkdir. Əsas Layihə yeniləmələri Regional Yollar və İnkişaf Layihəsi (RYİL) üzrə veb səhifədə yerləşdiriləcək. Sosial mediadan (əsasən Layihənin veb səhifədi (və ya sosial media platforması vasitəsilə) Layihənin

Təsirinə Məruz Qalan Şəxslər (LTMQT) və digər maraqlı tərəflər üçün fərqli maraqlı tərəflərə hesabat vermək üçün də istifadə ediləcəkdir.

# 9 İSTİNADLAR/TÖVSİYƏLƏR

Hazırlanmaqdadır

# 10 ƏLAVƏLƏR

## Əlavə 1. Nümunə Şikayət Forması

| **Şikayət Forması** | | | |
|---|---|---|---|
| Şikayət Qeydiyyat Nömrəsi (ŞHM üzrə Fokal Məntəqə Koordinatoru tərəfindən doldurulmalıdır): | | | |
| Əlaqə məlumatları (anonim şəkildə təqdim edilə bilər) | Ad (lar): | | |
| | Ünvan: | | |
| | Telefon: | | |
| | Elektron poçt: | | |
| Sizinlə necə əlaqə qurulmasını istərdiniz (birini seçin) | Poçtla: ☐ | Telefonla: ☐ | Elektron poçt: ☐ |
| Üstünlük verilən dil | ☐ Azərbaycan dili | ☐ Rus dili | ☐ digər___________ |
| Xahiş edirəm şikayətinizin təfərrüatlarını göstərin. Problemi izah edin, kimə, nə vaxt və harada, neçə dəfə baş verdiyini bildirin və s. Mümkün qədər ətraflı təsvir edin. | | | |
| Əgər varsa, şikayət üçün təklif etdiyiniz qərar nədir? Problemi həll etmək üçün Məşğulluq Xidmətləri Mərkəzindən və ya başqa bir tərəfdən/ şəxsdən etməsini istədiyiniz bir şey varmı? | | | |
| Bu formanı layihəyə necə təqdim etmisiniz? | Veb səhifə ☐ | Elektron poçt ☐ | Əldən ☐ |
| | Şəxsən ☐ | Telefonla ☐ | Digər (göstər) ☐ |
| Bu formanı kim doldurub (yuxarıda sadalanan şəxs deyilsə)? | Ad və əlaqə məlumatları: | | |
| İmza | | | |
| Fokal Məntəqə üzrə tətin edilmiş məsul şəxsin, Koordinatorun adı | | | |
| Həll olundu və ya Şikayətlərin Həlli üzrə Komitə1-ə göndərildi? | ☐ Həll edildi | ☐ İstinad olunur | İstinad edildiyi təqdirdə, tarix: |
| Həll olundu və ya Şikayətlərin Həlli üzrə Komitə 2-yə göndərildi? | ☐ Həll edildi | ☐ İstinad olunur | İstinad edildiyi təqdirdə, tarix: |
| **Tamamlama** | | | |
| Yekun qərar/qətnamə (qısaca təsvir edin) | | | |
| | Qısa təsviri/izahı | Qəbul edildi? (Bəli / Xeyr) | Təsdiqləyici imzası |
| 1-ci təklif olunan həll | | | |
| 2-ci təklif olunan həll | | | |
| 3-cü təklif olunan həll | | | |

# Əlavə. COVID-19 Pandemiyası zamanı Sahə İşi və Maraqlı Tərəflərin Cəlbedilməsinə dair təlimatlar

## COVID-19 Pandemiyası zamanı Sahə İşi və Maraqlı Tərəflərin Cəlb Olunmasına dair təlimatlar

Bu sənəddə göstərilən təlimatlar sahə işləri ilə əlaqəli Standart Əməliyyat Prosedurlarının (SƏP) inkişafına kömək edəcək və heyətin/qrupun bütün üzvlərinin qorunması üçün müvafiq COVID-19 sağlamlıq və təhlükəsizlik mülahizələrini təmin etməyə kömək edəcəkdir.

1) **Sahə İşləri üçün Standart Təlimatlar**

- İştirak tamamilə könüllü olmalıdır.
- Bütün sahə işçiləri simptomlarla bağlı gündəlik öz-özünə nəzarət aparmalı/izləməli və simptomlar mövcud olduqda Azərbaycan Səhiyyə Nazirliyi COVID-19 özünü qiymətləndirmə vasitəsini istifadə etmələri tövsiyə edilməlidir.
- Müvafiq sahə işçisinin qərarı ilə digər effektiv özünü qiymətləndirmə vasitələri də istifadə edilə bilər. Şəxslər hər hansı bir şəkildə özünü pis hiss edirsə və ya özünü yoxlama tamamladıqdan sonra daha bir tibbi təqibə başlamağı tövsiyə edilərsə, dərhal sahə işlərindən çəkinməli, evlərinə qayıtmalı və ən qısa müddətdə özünü təcrid etməlidirlər. Digər heyət/qrup üzvləri hər zaman məsafə və təmizlik tələblərinə ciddi əməl etdikləri və tək işləmədikləri müddətdə sahə işlərini davam etdirməlidirlər.
- Tədqiqat heyətinin/qrupunun bütün üzvləri yaxınlıqdakı xəstəxanalara və təcili tibbi yardım xidmətlərinə necə çatacağını da bilməlidirlər.
- Tədqiqat heyəti/qrupu, yaşadıqları ərazi üzrə ictimai səhiyyə işçilərindən və ya yerli hakimiyyət orqanlarından (təhlükəsizlik qüvvələri daxil olmaqla) hər hansı yeni təlimatı gündəlik olaraq izləyə bilməlidir.
- Hər hansı bir heyət/qrup üzvünün hər hansı bir səbəbdən işinə davam edə bilməyəcəyi təqdirdə evə qayıtması üçün bir fövqəladə planınız olmalıdır.

2) **İşləyərkən və səyahət edərkən fiziki məsafə**

### *Yoxlama və İzləmə*

- Tədqiqat heyətinin/qrupunun bütün üzvləri simptomları gündəlik olaraq özləri izləməlidirlər. Kimsə hər hansı bir şəkildə özünü pis hiss edirsə, işi dayandırmalı, dərhal heyətinə/qrupuna və rəhbərinə məlumat verməlidirlər.
- Harada və nə vaxt səyahət etdiyiniz, kiminlə getdiyiniz barədə və sahə işlərinin olduğu yerlərin ətraflı qeydlərini aparın ki, Tədqiqat heyətinin/qrupunun bütün üzvlərinin COVID-19 xəstəliyinə tutulması halında yerli ictimai səhiyyə bölməsinə xəstəliyin izlənməsi təmin edilə bilsin.

### *Nəqliyyat vasitələri*

*Səyahət Təlimatları*

- Rayon layihəsi ərazilərində səyahətlə əlaqədar yerli/milli hökumət və yerli İcra Hakimiyyəti tərəfindən qoyulan məhdudiyyətlərin nəzərdən keçirilməsi.
- Fiziki məsafəni qorumaq mümkün olmadıqda, nəqliyyat vasitəsində iki nəfərdən çox adamla səyahət etməyin. Xüsusi vəziyyətlər bir nəqliyyat vasitəsi ilə məhdudlaşırsa, sahə işləri riskinin qiymətləndirilməsində yalnız bir avtomobilin niyə istifadə oluna biləcəyini izah edən ətraflı bir azaltma planı əks olunmalıdır. Qiymətləndirmədə, birinin xüsusən də xəstə olduğu təqdirdə hər hansı bir səbəbdən ayrılmalı olduğu zaman nəqliyyatın mövcudluğu da nəzərə alınmalıdır.
- İki nəfərin bir-birindən ən azı 2 m aralı yerləşə biləcəyi 3 və ya daha çox sıra oturacaqlı böyük bir mikroavtobusda iki nəfərə qədər səyahət edə bilərsiniz. Avtomobilin ventilyasiyası yalnız

təmiz havaya qoşulmalıdır (hava sirkulyasiyasız) və mümkünsə maksimum hava axını üçün pəncərələr açıq olmalıdır.

- Nəqliyyat vasitələrindəki qarışıqlığı aradan qaldırın və əşyalar arasındakı təmasları məhdudlaşdıran və təmizliyi asanlaşdıran mexanizmlər təşkil edin. Zibil qutusunu kabinetdə saxlayın.
- Tədqiqat heyəti/qrupları ərzaq mağazaları, yanacaqdoldurma məntəqələri və s. daxil olmaqla əsas xidmətlərdən istifadə edə bilməlidirlər. Bu xidmətlərdən istifadə üçün yalnız bir heyət üzvü təyin edilməli və bunu məhdud fasilələrlə etməlidir. Fiziki məsafəni gözləmək və əl gigiyenası mümkün deyilsə, bu xidmətlərə müraciət edərkən cərrahi maska və əlcəklərdən istifadə edilməlidir.

*Gigiyena*

- Nəqliyyat vasitəsindən istifadədən əvvəl və sonra əllərin ən azı 20 saniyə ərzində sabun və su ilə əl yuyulma və ya alkoqollu əl təmizləyicisinin istifadə etməklə tənizlənməsi dərhal həyata keçirilməlidir.
- Heyət/qrup üzvlərinin, digər heyət üzvləri tərəfindən istifadədən əvvəl də daxil olmaqla, nəqliyyat vasitələrinin səthlərini və avadanlıqlarını hərtərəfli və mütəmadi təmizləmək üçün müvafiq təchizatı olmalıdır.
- Hər səfərdən əvvəl nəqliyyat vasitəsindəki qapı tutacaqları, təhlükəsizlik kəməri tokkalarını, sükan çarxları və s. daxil olmaqla tez-tez toxunulan səthləri təmizləyin və ya dezinfeksiya edin.
- Təmizləyici / dezinfeksiyaedici məhsulların istifadəsi ilə bağlı istehsalçının təlimatlarına əməl edin və lazım olduqda birdəfəlik əlcək geyin.
- Əlcəklər tələb olunursa, əlcəkləri necə geyinib çıxartacaqlarına dair müvafiq təlim tələb olunur. Əlcək çıxarıldıqdan sonra müvafiq əl gigiyenası aparılmalıdır.
- Qapı çərçivələri / tutacaqları, təhlükəsizlik kəməri tokkaları, sükan və s. kimi tez-tez toxunulan səthlərlə lazımsız təmasdan çəkinin.
- İstirahət dayanacaqları potensial təhlükə mənbəyi riskini təmsil edir - tualetlər, səthlər, klaviatura və s. potensial təhlükə mənbəyidirlər. Bu səthlərə toxunduqdan sonra əlləri yuyun və ya dezinfeksiya edin. Mümkün olduqda nağd puldan istifadə etməkdən çəkinin.
- Hər kəs yükləmə və boşaltma zamanı şəxsi çantalarını və əşyalarını idarə etməlidir.

*İş sahəsinə giriş və prosedurlar*

- Müvafiq fiziki məsafəni (2m) qoruya bilməyəcəyiniz hər hansı bir sahə tədqiqatına qatılmayın. Buna həm layihə əraziləri/sahələri daxilində, həm də xaricində əməl edilməlidir.
- Digər qrup üzvləri daxil olmaqla hər hansı bir fərd arasında fiziki məsafə (2m) saxlanmalıdır. Eyni zamanda sahə işçiləri tək işləməməlidirlər.
- Qadağan olunmuş ərazilərə giriş qaydalarına riayət edilməlidir. Qadağan olunmuş ərazilərə giriş vacibdirsə, müvafiq qurumlardan icazə və sənədlər alınmalıdır. Sahə işləri zamanı bu sənədləri özünüzdə saxlayın.
- Fiziki məsafə saxlamaq mümkün olmadıqca, ictimaiyyət nümayəndələri ilə üz-üzə müzakirələr tələb edən hər hansı bir sahə tədqiqatına qatılmayın.

***Sahədə***

*Yaşayış şərtləri*

- Bütün tədqiqat heyətinin/qrupunun üzvlərinin gecələmə müddətində fərdi yaşayış yerləri olmalıdır.
- Yataq dəstləri (oteldən istifadə edilmədiyi təqdirdə), geyim və digər şəxsi əşyalar torbaya qoyulmalı və başqalarından ayrı olmalıdır.
- Evə çatdıqdan sonra paltarı yuyun və duş alın.

- Yemək yeyərkən, böyük qaşıq, maşa, qablar və s. paylaşılmasından çəkinmək də daxil olmaqla düzgün məsafəni saxlayın.

*Sənədlərin, hesabatların və sənədləşmə işlərinin aparılması*

- Şəxsi söhbətlərdənsə (fiziki olaraq) etməkdənsə, ünsiyyət üçün mümkün qədər texnologiyadan istifadə edin (məsələn, mətn mesajları və mobil telefonlar).
- Mümkün olduqda sənədləri göndərmək və qəbul etmək üçün texnologiyadan istifadə edin (məsələn, skaner vasitəsilə).
- Qələmlər, noutbuklar, kompüterlər və s. ləvazimatları bölüşməyin, lakin hər tədqiqatçını imkan daxilində şəxsi ləvazimatla təmin edin.
- Hər gün istifadə olunan bütün avadanlıqları, mümkünsə sabun və su ilə və ya dezinfeksiya edici salfetlərlə təmizləyin və dezinfeksiya edin. Avadanlıqların təmizlənməsi başa çatdıqdan sonra əlcəkləri çıxarın və əlləri yuyun.

**3) Maraqlı Tərəflərin Cəlb Olunması Fəaliyyətləri**

- Lazım ola biləcək hər hansı əlavə nəzarəti müəyyənləşdirmək üçün iclaslar əvvəlcədən qiymətləndirilməlidir.
- Yığıncaqların, açıq məkan şəraitində, yəni terasda, bağçada, açıq ümumi sahələrdə keçirilməsinə üstünlük verilməsinə təşviq edin.
- Hazırlıq və iclaslarda əllərinizi tez-tez və hərtərəfli yuyun. Lift düymələri, qapı düymələri, tutacaqlar, klaviatura və maus/siçan, printerlər/ skanerlər, iclas otaqlarının stulları, masalar, ekranlar, proyektorlar, telefonlar, lövhələr və markerlərə toxunarkən asqırma / öskürək qaydalarına və əl təmizləyici tövsiyələrə əməl edin. Əlavə təlimatlar üçün "Şəxsi Gigiyena" protokoluna baxmanız xahiş olunur.
- İclasda iştirak edən insanlar 2 metr məsafədə fiziki məsafəni təmin etməli, üz-üzə yerləşməməli və əl sıxma, qucaqlaşma və ümumi cilddən dəriyə təmasdan çəkinməlidirlər. Fiziki məsafəni 2 metr məsafədə saxlamaq mümkün olmadıqda, üz maskaları və/ və ya göz qoruyucuları (üz qalxanları, gözlüklər və ya eynəklər) taxılmalıdır.
- Fiziki məsafə tələblərinə riayət etməklə bağlı şifahi məlumat veriləcək. Ziyarətçiyə Fərdi Qoruyucu Vasitələr (FQV) üzrə tələblər kimi müvafiq məlumatlarla birlikdə şəxsi əl təmizləyicilərini gətirməsi barədə qabaqcadan məlumat (məsələn, e-poçt və ya telefonla) vermək faydalı olardı.
- Ziyarətçiləri COVID-19 ilə əlaqədar, üz maskaları, əlcəklər, qoruyucu eynəklər və ya üz qalxanlarını əhatə edən Fərdi Qoruyucu Vasitələrin (FQV) tələbləri barədə məlumatlandırın.
- Ziyarətçilərə pandemiya ilə əlaqəli simptomları olduğu və ya şübhələndikləri təqdirdə ziyarətlərini/ görüşmələrini ləğv etmələrini və ya binalara daxil olmamalarını tövsiyə edin.

*İclas otaqları*

- İclas bir otaqda aparılırsa, əsasən insanların birbaşa və daimi təmasda olduqları (stullar, masalar, qapılar, qapı düymələri və ya hər hansı digər səth) yerləri iclasdan əvvəl və xüsusən də ziyarətçilərlə iclas bitdikdən sonra düzgün təmizlənməsi və dezinfeksiya edilməsini təmin edin.
- Qapı və pəncərələri açıq saxlayaraq havalandırmanın mövcudluğundan əmin olun və qapı düymələri ilə işləməkdən çəkinin
- İclas, havalandırılan bir məkana üstünlük verməklə, otağın ölçüsü və xüsusiyyətlərindən və oturma tərtibindən asılı olaraq, fiziki məsafənin kifayət qədər təmin edilə biləcəyi sayda bir qrup insanla aparılmalıdır. Sıxlıq nə qədər az olsa, bir o qədər yaxşıdır. İclas otağının girişinə icazə verilən maksimum sayın açıq şəkildə göstərildiyi bir lövhə qoyulmalıdır. Yerli hakimiyyət orqanlarının tələblərini nəzərə almağınız xahiş olunur.

- Əl sıxma kimi cilddən dəriyə toxunma və ya material və ya cihazlara toxunma və ya cihazları dəyişdirmə kimi fiziki təmasdan çəkinin.
- Müvafiq fərdi gigiyena tədbirləri haqqında məlumatı göstərin, yəni iştirakçıları öskürək və ya asqırma halında üzlərini dirsək və ya birdəfəlik salfetlə örtməyə təşviq edin. Birdəfəlik salfetlər və onların atılması üçün qapalı qutuları tədarük edin, ayaqla işləyən zibil qutuları daha yaxşıdır.
- İclasın bütün iştirakçıları üçün kifayət qədər əl təmizləyici və dezinfeksiya edici salfetin olması tövsiyə olunur.
- Dəftərxana ləvazimatları (yəni qələm, kağız) və elektron cihazların mübadiləsi qadağan edilməlidir. Qrupun dəstəyini sənədləşdirmək üçün yalnız toplantı rəhbəri tərəfindən idarə ediləcək fotoşəkilləri və/ və ya əvvəllər çap olunmuş gözlənilən köməkçilər siyahısını istifadə edin.
- Qida xidmətindən və iaşə yeməklərindən çəkinin.
- Bitən və başlayan hər bir görüş/iclas arasında bir boşluq qoyun (yəni, pilləli görüş/iclas).

Ziyarətçilər hər görüşdən sonra tutduqları ərazini dezinfeksiya etməkdən məsul olmalıdırlar, xüsusən də təmizlik qrupu yoxdursa.